# Kürü Diplomatiyası

## Azərbaycan Avropa Şurasını Necə Susdurdu

*1-ci Hissə*



**Berlin**
**24 May 2012**

*Mündəricat*

**İŞTİRAKÇILARIN TƏRKİBİ** ..... II
**I. İRSƏ XƏYANƏT** ..... 1
**II. "GÖZÜMÜZÜN ÖNÜNDƏ OLSALAR DAHA YAXŞIDIR?"** ..... 3
A. AZƏRBAYCAN VƏ ONA INAM ..... 3
B. SEÇKILƏR VƏ AVTORITAR KONSOLIDASIYALAR ..... 6
C. STRASBURQDA ÜZLƏŞMƏ (2006) ..... 11
**III. KÜRÜ DİPLOMATİYASI** ..... 14
A. AŞPA-NIN SUSDURULMASI ..... 14
B. SEÇKINI NECƏ OĞURLAMAQ OLAR (2010) ..... 23
**ƏLAVƏ: ESI HESABATLARI** ..... 31

## İŞTİRAKÇILARIN TƏRKİBİ

***Avropa Şurası Parlament Assambleyasının (AŞPA) üzvləri***

| ***TƏNQİDÇİLƏR*** | ***ÜZRXAHLAR***[1] |
|---|---|
|  |  |
| **Andreas Gross** (İsveçrəli)<br>Monitorinq Komitəsinin Məruzəçisi 2001-2006<br>Sosial Demokrat | **Joseph Debono Grech** (Maltalı)<br>Monitorinq Komitəsinin Məruzəçisi 2009-dan<br>Leyborist |
|  |  |
| **Andres Herkel** (Estoniyalı)<br>Monitorinq Kpmitəsinin Məruzəçisi 2004-2010<br>Mühafizəkar | **Pedro Agramunt** (İspan)<br>Monitorinq Komitəsinin Məruzəçisi 2010-nan<br>Mühafizəkar |

[1] Biz "üzrxah" kimi təsvir etdiyimiz AŞPA üzvləri, ictimaiyyətdə və Avropa Şurası Parlament Assambleyası toplantılarında, Azərbaycanın demokratik vəziyyətini müdafiə edənlər və seçkiləri alqışlayanlardır. "Tənqidçilər, onların çatışmazlıqlarına diqqət çəkənlərdir. Sitatlar üçün səhifə III-ə baxın.



**Leo Platvoet** (Holland)
AŞPA Seçki Müşahidə Missiyasının Rəhbəri
2005
Yaşıl Solçu



**Paul Wille** (Belçikalı)
AŞPA Seçki Müşahidə Missiyasının Rəhbəri
2010
Liberal




**Malcolm Bruce** (Böyük Britaniyalı)
Siyasi Məhbuslar üzrə Məruzəçi 2003-2005
Liberal Demokrat



**Mike Hancock** (Böyük Britaniyalı)
AŞPA üzvü
Liberal Demokrat



**Christoph Strasser** (Alman)
Siyasi Məhbuslar üzrə Məruzəçi 2009-2012
Sosial Demokrat



**Eduard Lintner** (Alman)
Monitorinq Komitəsinin Rəhbəri 2006-2007
Xristian Demokrat

**Üzrxahlar Azərbaycan demokratiyası və seçkiləri barədə**

| | |
|---|---|
| Joseph Debono Grech: | "Hər bir ölkədə problemlər mövcuddur, amma ümumiyyətlə vəziyyət ümidvericidir. Azərbaycan hələ gənc demokratiyadır, 20 il uzun müddət deyil və buna görədə biz Azərbaycana kömək edə bilərik. Amma bu qısa müddət üçün əla işlər görmüsünüz." (News.az, 4 Oktyabr 2011) |
| Pedro Agramunt: | "Hər ikimiz razıyıq ki demokratikləşmə uğrunda vacib irəliləyiş vurqulanmalıdır. Azərbaycanın qanunlarını Avropa Şürası standardlarına uyğunlaşdırmaq məqsədi ilə hakimiyyətin təsirli qanunvericilik işlərini qeyd edirik. (Fevral 2011 Fakt Araşdırma Məlumat Notu) |
| Paul Wille: | 2010-cu il seçkiləri "əsas etibarilə bizim öz –AŞPA, ATƏT və beynəlxalq – standartlarımıza və öhdəliklərimizə cavab vermişdir". (Bakıda mətbuat konfransı, Noyabr 2010) |
| Michael Hancock: | "Mən Azərbaycandaki (2010) seçkilərdə olmağımdan qürur duyuram. Həm Avropada, həm də dünyanın hansısa başqa yerində, hər bir seçki barədə seçkinin ertəsi günü deyilə biləcək ən yaxşı söz budur ki,, insanların əksəriyyəti, istədiyi nəticəni əldə etdi." (AŞPA-da müzakirə, Yanvar 2011) |
| Eduard Lintner: | "Lintner deyir ki, onun insan haqqları komitəsindən çıxmasının səbəblərindən biri, Avropa Şurasında bir qrupun hər iddia edilmiş insan haqları pozuntlarını ciddi şəkildə tənqid etmək istəyirdi. Onlardan fərqli olaraq, [Lintner] '(Azərbaycana), dəstəklə, yardım etməyi' tövsiyə edirdi." (Spiegel, 4 January 2012) |

***Seçkinin Oğurlanması (2010)***



**İlham Əliyev** (Azərbaycanlı)
Prezident (2003-dən indiyədək)
AŞPA nümayəndə heyətinin rəhbəri (2001-2003)



**Ramiz Mehdiyev** (Azərbaycanlı)
Prezident Administrasiyasının rəhbəri



**Wolfgang Grossruck** (Avstriyalı)
ATƏT Parlament Assambleyası Nümayəndə Heyətinin Rəhbəri (2010)



**Tadeusz Iwinski** (Polşalı)
2010 AŞPA Seçki Müşahidə Missiyası Rəhbərinin Müavini



**Audrey Glover** (Böyük Britaniyalı)
2010 ATƏT/DTİHB Seçki Müşahidə
Missiyasının Rəhbəri

| | |
|---|---|
| **Ramiz Mehdiyev:** | “Mehdiyev həm də seçki saxtakarlığının səbəbini Sovet vaxtından qalan mentalitetin nəticəsi kimi izah etdi. *Səfirə, Sovet zamanı və indi də seçkilərə məsulliyət daşıdığını deyərək,* Mehdiyev əvvəlcə *seçkilərə ümumi münasibətin heç dəyişmədiyini, amma sonra isə 1995-2005 illər dövründə “bəzi” müsbət dəyişikliklərin olduğunu qeyd etdi.”* (2006-da ABŞ diplomatları ilə söhbət) |
| **İlham Əliyev:** | “Bizim seçkilər tamamilə azad və ədalətli olacaq; yalnız DTİHB-nin nə deyəcəyi bilinmir .” (İyun 2008, ABŞ rəsmiləri ilə söhbət) |
| **Audrey Glover:** | “Təəssüf ki, bizim müşahidəmiz mənalı demokratik seçki üçün zəruri şəraitin yaradılmadığını göstərdi.” (Mətbuat konfransı, 2010 noyabr seçkiləri, Bakı) |
| **Wolfgang Grossruck:** | “Missiya boyunca bizdə təəssürat yaranmışdı ki, DTİHB, həqiqətən-də peşəkar rəftarla dəlilləri toplayıb analiz etmək yerinə, beynəlxalq medianın, QHT cəmiyyətinin və Azərbaycan müxalifətinin ümidlərini yerinə yetirməyə istəyi vardı.” (ATƏT-in sədrinə məktub, noyabr 2010) |
| **Tadeusz Iwinski**: | “Son illərdə, insan haqları, demokratiya və qanun aliliyi ilə bağlı, Azərbaycan, Avropa standartlarına üstünlük vermişdir.” (AŞPA müzakirəsi, iyun 2010) |

# I. İRSƏ XƏYANƏT

"Avropa Şurası Parlament Assambleyasında bir çox deputatın salamdan sonra ilk sualı 'Kürü haradadır?' olur."
Yüksək vəzifəli Azərbaycanlı siyasi şəxsin ESI-ya dedikləri, 2011[2]

Kürü həmişə zənginlik simvolu olmuşdur. Kürünü özləri ləzzətlə yeyən Rusiyalı çarlar və İranl şahları, onlara qonaq gələn krallara və kraliçələrə ağ balığın kürüsünü yedizdirərdilər. Dünya kürü istehsalının 90 faizini mənbəyi Xəzər dənizidir və bu səbəbə görə Azərbaycan (8 milyon əhalisi olan Xəzər ölkəsi) kürü ilə zəngindir və bu sərvətini çox səxavətlə işlədir. Hətta Sovet zamanı, Azərbaycanlı məmurlar imperiyanın uzaq güşələrinə biznes ilə məşqul olmağa gedəndə özləri ilə kürü aparardılar.

Hədiyə vermək Azərbaycan mədəniyyətinin bir ənənəsidir. Amma bəzən bunun sərhədi olmur. Azərbaycanın adət və ənənələri barədə bəhs edən yeni bir kitabın yazdıqlarına görə:

> "Böyük ürəkli hərəkətlər, məsələn restoranda rast gəldikləri tanışların hesabını ödəmək və ya qonaqlar və tanışlar üçün xeyirxahlıq etmək təbiidir...amma bu alicənablığın bir gün qarşılıqlı olması gözlənilir."[3]

Həqiqətəndə bu siyasətin arxasındaki məntiq, Azərbaycanlı məmurların məxfi söhbətlərində "kürü diplomatiyası" adlanırırdı. Hər şey 2001-də, Azərbaycan qitənin demokratik ölkələr klubu - Avropa Şurasına gəbul olduğu zaman başladı. Bu proses, əvvəllər Avropa Şurası Parlament Assambleyasında (AŞPA) iştirak etmiş İlham Əliyevin 2003-də Azərbaycanın prezidenti seçildiyindən sonra sürətləndi. 2005-də Bakı-Tiflis-Ceyhan borusu tikildikdən sonra, və Azərbaycan dövlət xəzinəsi neft pulları ilə dolmağa başlayanda "kürü diplomatiyası" ən yüksək dərəcəyə qalxdı.

Kürü diplomatiyası Avropa Şurasına üzvlüyün bəxş etdiyi legitimliyin qazanılması və saxlanılmasında rol oynayırdı. 1949-cu ildə yaradılmış Avropa Şurası Avropanın ən nüfuzlu klubu deyil. Həqiqətəndə Avropa Birliyinin mürəkkəb idarəçilik arxitekturasına müqayisədə, Avropalı vətəndaşların əksəriyyəti onu unudublar. Amma təvəzökar və sadə olsada, Avropa Şurası demokratiya və insan haqlarını təmsil edir. Yarım əsrdən çoxdur ki Avropa Şurası Avropanı birləşdirən dəyərlərin simvoludur. Avropa Şurasının üzvü olmaq, Avropa ailəsinin üzvü olmaq deməkdir.

Diplomatiyanın məqsədi həmişə dostların qazanılması, alyansların qurulması və sövdələşmələrin əldə edilməsi olmuşdur. Amma Azərbaycan və Avropa Şurası arasında diplomatiyanın rolu daha dərindir. 2011-də Strasburqda Azərbaycanlı mənbələr ESI-ya, Bakıda dəstək qazanmaq üçün Azərbaycanın sistemli siyasəti barədə demişdilər:

> "Bir kilo kürünün dəyəri 1300 və 1400 avro arasındadır. AŞPA-daki dostlarımız, ildə dört dəfə, hər sessiyada, 0.4 və 0.6 kilo arasında kürü alırlar. Bunu alanlar AŞPA-daki ən vacib dostlarımızdır və onların sayı təxminən 10-12 arasındadır. Onlardan başqa üç-dörd nəfər də katiblikdədir."

Bəzi dostlar üçün kürü yalnız başlanğıc idi:

---

[2] 2011-də ESİ ilə müsahibə.

[3] Nikki Kazimova, Azerbaijan – the essential guide to customs and culture, Kuperard, 2011, p. 47.

> "Ən azı her sessiya kürü hədiyə verilir. Amma Bakıya ziyarət zamanı başqa hədiyələrdə verilir. Çoxlu deputatlar Azərbaycana dəvət olunur və səxavətlə ödənilirlər. Adi ildə ən azı 30 və 40 arasında deputat dəvət olunur və onların bəziləri dəfələrlə. Adamlar konfranslara və ya tədbirlərə dəvət olunurlar, bəzən isə yay istirahətinə. Həqiqətəndə istirahət olur və çoxlu bahalı hədiyələr verilir. Hədiyələrin əksəriyyəti bahalı ipək xalçalar, qızıl və gümüş əşyalar, içkilər, kürü və puldan ibarət olur. Bakıda ən adı hədiyələrdən biri 2 kilo kürüdür."

Bu proyekt üzərində çalışarkən biz çoxsaylı beynəlxalq məmurlar, Azərbaycanlılar, AŞPA üzvləri və Azərbaycanda seçki monitorinqi ilə məşqul olan adamlarla söhbət etdik. Biz həm də Avropa Şurasında Azərbaycanla bağlı müzakirələrin protokollarını tədqiq etmişik və beynəlxalq seçki nəzarətçilərinin hazırladıqları müşahidə hesabatlarını təhlil etmişik.

Avrpopa Şürasının xaricində Azərbaycanda demokratiyanın vəziyyəti barədə ciddi ixtilaf yoxdur. Hətta Azərbaycanın ən böyük pərəstişkarları etiraf edirlər ki, ölkə ən azı yarımavtoritar rejimdir. Hazırki prezident İlham Əliyevin atası Heydər Əliyev 1993-də ilk seçkili prezidentə qarşı çevrilişdən sonra hakimiyyətə gəldikdən bəri Azərbaycanda heç bir dəfə də rəqabətli və sərbəst seçki olmamışdır. Seçkiləri təşkil etmək məsuliyyətini daşıyan Mərkəzi Seçki Komissiyası, seçki şəraitini iqtidarın xeyrinə o gədər möhkəmləndirib ki, nə ədalətli nədə ki ədalətsiz siyasi mübarizə mümkün deyil. 2010-ci ilin parlament seçkilərində bir nəfər də müxalifətçi namizəd parlamentdə yer qazana bilmədi.

Bu halda, necə oldu ki AŞPA-nın seçki müşahidə missiyasının rəhbəri seçkilərin beynəlxalq və Avropa Şurası normalarına uyğun keçdiyini bəyan etdi? 2003-dən indiyədək getdikcə pisləşən insan haqları vəziyyətini nəzərə alsaq, nəyə görə AŞPA-da hər dəfə Azərbaycan müzakirə olunanda, bu müzakirələr qeyri-tənqidi və hətta tərifləyici tonda aparılır?

Bu hesabat bu suala bir neçə cavab təklif edir. Hesabat Bakıdaki avtoritar rejimin öhdəliklərindən necə geri çəkildiyini, tənqidçilərini necə susduruduğunu və beynəlxalq seçki müşahidəçiliyini siyasi teatra necə çevirdiyini təsvir edir. Hesabat, Avropanın ən qədim insan haqları təşkilatının necə tərk-silah edilməsinin hekayətidir.

İdarəçilərin uğursuzluğundan başqa, hesabat həm də, Avropa Şurasında bəzi şəxslərin həm yaxşı həm də pis təsirləri barədə söhbət edir. Bu hekayətin rəngarənq personajları var - tənqidçilər və üzrxahlar – onlar İsveçrəli, Belqiyalı, Britaniyalı, Alman, İspan və Türklərdir; onların arasında liberallar, sosial demokratlar, mühafizəkarlar, millətçilər və keçmiş kommunistlər var. Azərbaycanda onların çoxu Avropa İnsan Haqları Konvensiyasında qeyd edilən dəyərləri və ənənələri satıblar. Bunun nəticəsi, Avropa Şurasının tarixində üzləşdiyi ən ağır legitimlik böhranı ola bilər.

Azərbaycanı AŞPA-da müdafiə edənlərin hamısı bunu öz maddi faydalarına görə etməmişlər. Başqa faktorların da təsiri var idi, o cümlədən geosiyasi maraqların. Amma bir çox dəlil AŞPA-nı məsulliyətlərindən uzaxlaşdırmaqda korrupsiyanın təsiri olduğuna şübhə doğurur. Müxtəlif Azərbaycanlılar tərəfindən kürü diplomatiyasının necə həyata keçirildiyini izah edən məlumatlar, AŞPA üzvləri və digər mənbələrlə müsahibələrdə təsdiq olunub. Bu, Avropa Şurasının məntiqsiz görünən hərəkətlərini axır ki izah edir.

Demokratik uğursuzluqları diqqətlə öyrənilsə də, Azərbaycan Avropa Şurasına gəbul olunanda, bu qərar Azərbaycanın Avropa Şurası tərəfindən trasnformasiya olunaçağı ümidi ilə qəbul edilmişdi. ümidi ilə qəbul edilmişdi. Bunun nəticəsi isə Azərbaycan vətəndaşları üçün faciədir, xüsusəndə həbslərdə siyasi məhbus kimi cəza çəkən cəsarətli demokratiya tərəfdarları olan fəallar üçün. Amma bu həm də dəyərləri tapdanan Avropa üçün də faciədir.

Ona görə ki, kürü diplomatiyasının xeyrini görən AŞPA parlamentçiləri həm də Avropada müxtəlif milli parlamentlərin üzvləridirlər. Əlbəttə də ki, bu Avropa Şurası üçün də faciədir, ona görə ki, özünün davamlı mövcudiyyətini əsaslandırmaq üçün təşkilata təsisçiləri tərəfindən tapşırılan dəyərləri təcilən bərpa etməsi lazımdır.

## II. "GÖZÜMÜZÜN ÖNÜNDƏ OLSALAR DAHA YAXŞIDIR?"

### A. *Azərbaycan və ona inam*

Avropa Şurası 1949-cu ilin May ayında yaradılanda, yalnız on üzvü var idi.[4] 1989-cu ilə gədər isə 23 üzvü var idi. [5] Kommunist erasının dissidenti və gənc demokratiyanın lideri Vaclav Havel May 1990-da Strasburqun Avropa Sarayında danışarkən, Avropa Şurasını "Avropanın ən vacib siyasi forumu" adlandırdı.[6] əzərində Avropa Şurası insan haqlarını ən yüksək səviyyədə qoruyan demokratik ölkələrin elə bir klubu olmalıydı ki, Avropada avtoritar rejimlərin ömrünün qısaldılması təmin etsin.

Bu demokratik ölkələr klubu üçün bir neçə sadə qayda var. Birincisi, heç bir demokratiya nöqsansız deyil və ona görə də xaricdən nəzarət faydalı ola bilər. Beynəlxalq məhkəmə orqanı, Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) hökmlərinə tabə olmaq Avropa Şurasının hər bir üzvündən gözlənilir və tələb olunur. Bu gün, 47 dövlətdə yaşayan 800 milyon vətəndaşın hər biri öz əsas hüquqlarını müdafiə etmək üçün məhkəməyə müraciət edə bilər. Avropa Şurası üzvləri həm də bir birinə cavabdehdilər. Onlar birləşərək, xaricdən gələn tənqidlərin və müdaxilənin legitimliyini gəbul edirlər.

İkinci idea isə iddia edir ki yalnız demokratiyalar Avropa Şurasına üzv ola bilər. Ispaniya və Portuqaliya yalnız avtoritar rejimləri devrildikdən sonra Avropa Şurasına qoşula bildilər: Portuqaliya 1976-da, İspaniya isə 1977-də. Yunanistan Şuraya 1949-da qoşulsa da, 1967 Aprel çevrilişindən sonra, AŞPA ölkənin üzvlüyünü ləğv etməyi tövsiyə etdi.[7] 31 Yanvar 1968 tarixli qətnaməsində, Assambleya Yunanıstandan ən qısa zamanda azad seçkilər keçirməsini tələb edərək, 1969-cu ilin yaz aylarına gədər "məqbul parlament demokratiyası"bərpa edə bilmədiyi halda Yunanistanın kluba üzvlüyünü "dayandırmaq və ya xaric etməklə" hədələdi.[8] Yunan xuntası bu qərarı təxmin edərək, öncədən Avropa Şurasından çıxmaq qərarını elan etdi.[9] Ancaq polkovniklərin devrillməsindən sonra, 28 Noyabr 1974-də Yunanistan yenidən Avropa Şurasına qoşuldu.[10] Beləcə də Turkiyədə Sentyabr 1980-da baş vermiş hərbi çevrilişdən sonra bir neçə həftə ərzində AŞPA, heç bir avtoritar hökumətin, onun motivasiyasından asılı olmayaraq, Avropa Şurasının prinsiplərinə zidd olduğunu bəyan etdi.[11] 1981-in May ayında, Assambleya Türkiyənin Avropa Şurasına nümayəndə heyətinin etimadnaməsinin uzadılmasından imtina etdi.[12]

---

4 Avropa Şurasının on təsisçi üzvləri Belqiya, Danimarka, Fransa, İrlandiya, İtaliya, Luksemburq, Hollandiya, Norveç, İsveç və Böyük Britaniyadır.

5 Sonradan daxil olan 13 üzvlər – Yunanistan (1949), Türkiyə (1949), İslandiya (1950), Almaniya (1950), Avstriya (1956), Kipr (1961), İsveçrə (1963), Malta (1965), Portuqaliya (1976), İspaniya (1977), Lixtenşteyn (1978), San Marino (1988), və Finlandiya (1989).

6 Vaclav Havel, Avropa Şurasında çıxışı, Strasburq, 10 May 1990.

7 Avropa Şurasının Məşvərətçi Assambleyasının 547-ci Tövsiyəsi (1969), 30 Yanvar 1969.

8 Avropa Şurasının Məşvərətçi Assambleyasının 361-ci Qətnaməsi (1968), 31 Yanvar 1968.

9 Nazirlər Komitəsi, Qətnamə 70 (34), "Yunanistanın Avropa Şurasından çıxmasının Hüquqi və Mali nəticələri", 27 Noyabr 1970.

10 Gudmundur Alfredsson və başqaları (redaktorlar), *Beynəlxalq İnsan Haqları Nəzarət Mexanizmləri: Yakob Th. Mollerin şərəfinə yazılar,* Martinus Nicxof, 2009 (2-ci nəşr), səh. 443.

11 AŞPA Tövsiyə 904 (1980), paraqraf 8, 1 Oktyabr 1980.

12 Bu yalnız 1983-də, birinci demokratik seçkilərdən sonra dəyişdi.

Demokratiyanı üzvlük üçün şərt edərək, ideal olmayan demokratiya ilə avtokratik rejimi fərqləndirməyin mümkün olduğu Şura tərəfindən qəbul olunub. Bu fərqi vurğulamaq üçün Şura bir neçə standartları müəyyənləşdirmişdir. Üzvlərdən bu standartları yerinə yetirmək gözlənilir. Bunlardan biri də "azad və ədalətli seçkilərin" keçirilməsidir; digəri isə fikir və ifadə azadlığının təmin edilməsidir. Oktyabr 1993, Vyanada sammitdə, üzv dövlətlərin hökümət başçıları birlikdə bəyan etdilər ki:

> "Xalqın təmsilçiləri ümumi seçki hüququ əsasında, azad və ədalətli seçkilər yolu ilə seçilməlidirlər. Bizim fikrimizcə, üzvlük üçün hər hansı müraciətləri qiymətləndirməkdə, ifadə azadlığı, xüsusilə də medianın azadlığı, milli azlıqların qorunması və beynəlxalq qanunların prinsiplərinə riayət, həlledici meyarlar olmalıdır."[13]

Berlin divarının aşırılmasından sonra Şərqi Avropada bir neçə yeni demokratiyanın yaranması, aydın qaydaların müəyyən edilməsinin onəmli olduğunu vurğuladı. Avropa Şurası üçün, 1990-cı illər sürətli artım dövrü idi. İlk qoşulanlar Mərkəzi Avropa ölkələri idilər: Macaristan 1990-da, Çexoslovakiya və Polşa 1991-də, və Bolqaristan 1992-də. 1993-də Şura keçmiş Sovet İttifaqı ölkələrini üzvlüyə qəbul etməyə başladı. 28 İyun 2000-də, Avropa Şurasının o vaxtki 41 üzv dövlətlərindən parlamentçilər Strasburqda yerləşən Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Ermenistanın və Azərbaycanın üzvlük müracətini müzakirə etməyə toplaşdılar.

*Cədvəl 1: Keçmiş Sovet İttifaqı dövlətlərinin Avropa Şurasına Üzvlüyü*

| **İl** | **Ölkələr** |
|---|---|
| 1993 | Estoniya, Litva |
| 1995 | Latviya, Moldova, Ukrayna |
| 1996 | Rusiya |
| 1999 | Gürcüstan |
| 2001 | Ermənistan, Azərbaycan |

Avropa Şurasına qoşulmaq üçün, ölkə Avropalı və demokratik olmalıdır. Artıq Oktyabr 1994-də, AŞPA bəyan etmişdi ki, "Əgər Avropanın bir hissəsi olmaq iradəsini aydınlıqla göstərə bilsələr, və Avropa ilə mədəni əlaqələr baxımından, Ermənistan, Azərbaycan və Gürcüstanın üzvlüyə müraciət etməyə imkanları var."[14] Azərbaycana müvəqqəti "özəl qonaq" statusu İyun 1996-da verildi. İki həftə sonra, Azərbaycan tam üzvlük üçün müraciətini təqdim etdi.
Lakin Azərbaycan demokratik idimi? Dörd il boyu AŞPA qərara gələ bilmirdi. İyun 2000-də parlamentçilərin önündə iki sənəd var idi. Onlardan biri Azərbaycanın müraciəti barədə Belçikalı üzv, Georges Clerfaytın rəyi idi.[15] O, belə qənaətə gəldi ki, Azərbaycan Avropa Şurası standartlarına riayət etmək üçün "əhəmiyyətli irəliləyiş" nümayiş etmişdir, və Azərbaycanda islahatlar üçün siyasi iradənin və "təkanın" olduğunu əlavə etdi.[16] Fransız üzv, Jacques Baumel tərəfindən hazırlanmış ikinci hesabat isə eyni nəticəyə gəldi.[17]

---

[13] Nazirlər Komitəsi, "Vyana Bəyannaməsi", 9 Oktyabr 1993.

[14] Avropa Şurasının genişlənməsi barədə 1247-ci Tövsiyəyə (1994) baxın, 4 Oktyabr 1994.

[15] AŞPA-nın Hüquqi Məsələlər və İnsan Haqları Komitəsi, "Azərbaycanın Avropa Şurasına tam üzvlük üçün müraciəti", Dokument 8757, Məruzəçi Georges Clerfayt, 27 İyun 2000.

[16] AŞPA-nın Hüquqi Məsələlər və İnsan Haqları Komitəsi, "Azərbaycanın Avropa Şurasına tam üzvlük üçün müraciəti", Dokument 8757, Məruzəçi Georges Clerfayt, 27 İyun 2000, 63-cü və 64-cü bölmələr.

[17] AŞPA-nın Siyasi Məsələlər Komitəsi, "Azərbaycanın Avropa Şurasına üzvlük müraciəti," Doc. 8784, Məruzəçi Jacques Baumel, 23 May 2000.

Baumelin hesabatında həm də Azərbaycan barədə olan rəy layihəsi Assambleyada səsverməyə təqdim edildi. Sonradan 222-ci Rəy adlanan sənəd, Azərbaycanın Şuraya qoşulmasında sonra qəbul etməli olduğu dəqiq öhdəlikləri siyahıda təqdim etdi (3-cü cədvələ baxın). Bakıdan, Şuranın nəzarət prosesinə tamamilə əməl etməsi, Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə sadiq olması[18] və siyasi məhbus probleminin həlli gözlənilirdi. Sənədin mətni həm də Azərbaycanın demokratiyaya sadiq olması üçün qarşıdan gələn Noyabr 2000 seçkisinin sınaq olduğunu vurğuladı.[19]

Heç də hamı Azərbaycana etimad göstərməyin müdrik qərar olduğuna inanmırdı. Britaniyalı Liberal Demokrat, Malcolm Bruce qeyd etdi ki, adətən, namizəd ölkələr azad və ədalətli seçkilər keçirənə gədər (Azərbaycan bunu heç bir zaman etməmişdir) AŞPA onlara üzvlük verməkdən imtina etmişdir.[20] O naraht idi ki, əgər Azərbaycan vaxtından əvvəl qəbul olunsa, o zaman ötən illərdə əldə etmiş irəliləyişləri geriyə döndərə bilər.[21] Bu arqument, diqər deputatlar tərəfindən dəstəklənmədi. 28 İyun 2000-də, 120 üzv, Azərbaycanın üzvlüyünü tövsiyə etməyə səs verdilər. Beş nəfər səsvermədə bitərəf qaldı. Malcolm Bruce, AŞPA-nın yeganə üzvü idi ki, buna qarşı səs verdi.

Bundan sonra müzakirə Avropa Şurasının icraedici orqanı, Nazirlər Komitəsinə köçürüldü. Yalnız bu orqan üzvlərin gəbul və ya xaric edilməsi barədə qərar verə bilər. Nazirlər Komitəsi, Azərbaycanın üzvlüyü barədə sonuncu səsverməni Noyabr 2000 parlament seçkilərindən sonraya təxirə saldı ki, Bakidaki hakimiyyət orqanları irəliləyiş nümayiş etdirə bilsinlər.

Bu seçkilər, 5 Noyabr 2000-də keçirildi.[22] Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Müşahidə Missiyası bildirdi ki "Səslərin sayılması və nəticələrin aqreqasiya prosesleri, tamamilə nöqsanlı və manipulyasiyalı olmuşdur".[23] AŞPA-nın müşahidəçiləri "seçki prosedurlarının aydınlıqla manipulyasiya" olduğunu qeyd etdilər. 1991-ci ildən İsveçrə parlamentinin Sosial Demokrat üzvu olan Andreas Gross, AŞPA-nın seçki müşahidə missiyasının rəhbəri idi. Təcrübəli seçki müşahidəçisi olaraq, Gross, Bakının yanındaki Sumqayıt şəhərində, kütləvi və sistematik saxtakarlıqlar barədə dəlillər aşkar etdi. O vaxt, o bir İsveçrə qazetinə demişdi:

> "1994-cü ildən bəri, mən 7 ölkədə 13 seçkini müşahidə etmişəm və bu mənim gördüyüm ən pis seçki saxtakarlığı idi. Seçki məntəqəsinin açılışından bir saat əvvəl, hakim partiya üçün 150 imzalanmış, doldurulmuş və möhürlənmiş seçki bulletenlərini seyfdə aşkar etdim. Bütün bazar günü seçki məntəqəsinə yalnız 350 vətəndaş gəldi. Başqa sözlə, nəticələr əvvəldən məlum idi."[24]

Rəsmi statistikya görə hakim partiya səslərin 60 faizindan çoxunu toplamışdı,[25] amma həyata keçirilən müstəqil "exit poll-arın" nəticələri bu rəqəmə zidd olmuşdur. Qafqaz eksperti Svante Cornell qeyd etdi ki, "seçki qutularına saxta bülletenlərin doldurulması, nəticələr

---

18 AŞPA, 222 nömrəli Rəy (2000), "Azərbaycanın Avropa Şurasına üzvlük müraciəti", 28 İyun 2000.
19 AŞPA, 222 nömrəli Rəy (2000), paraqraf 14. iii.b.
20 AŞPA müzakirəsi, 28 İyun 2000, gündüz saat 3-də.
21 AŞPA müzakirəsi, 28 İyun 2000, gündüz saat 3-də.
22 ATƏT/ DTİHB, "Azərbaycan Respublikasının 5 Noyabr 2000 və 7 Yanvar 2001 Parlament Seçkiləri, Yekun Hesabat", 14 Yanvar 2001.
23 ATƏT/ DTİHB, "Azərbaycan Respublikasının 5 Noyabr 2000 və 7 Yanvar 2001 Parlament Seçkiləri, Yekun Hesabat", 14 Yanvar 2001, səh. 2.
24 *Newe Zürcher Zeitung (NZZ)* ilə müsahibə, Yanvar 2001, Alman dilindən ESİ –nin tərcüməsi.
25 ATƏT/ DTİHB, "Azərbaycan Respublikasının 5 Noyabr 2000 və 7 Yanvar 2001 Parlament Seçkiləri, Yekun Hesabat", 14 Yanvar 2001, Əlavə 4 və 5.

protokollarının saxtalaşdırılması, seçicilərin və məntəqələrdə seçki komissiyalarının müxalifətçi üzvlərinə hədə-qorxu müxtəlif formlarada mövcud olmuşdur. Rəsmi seçicilərin fəallığı rəqəmləri (seçki məntəqələri tərəfindən saatbasaat məlumatlandırılan), süni şəkildə dəyişdirilmişdir."[26] Manipulyasıyalar, yekun nəticələri əhəmiyyətli dərəcədə təhrif etmişdir: "Rəsmi yekun nəticələri, 68 faiz seçici fəallığı göstərsə də, müşahidəçilər seçici fəallığının əslində elektoratın təxminən üçdə birini təşkil etdiyini qeyd etmişdir."[27] Həm hakimiyyətin həm də müxalifətin "səsin dördə birini topladıqları inandırıcı ola bilərdi."[28] 8 Noyabrda, "Human Rights Watch", Nazirlər Komitəsindən Azərbaycanı qəbul etməməsini xahiş etdi. QHT israr etdi ki, seçkilərin keçirilməsi, Azərbaycanın Avropa Şurasının demokratik standartlarına uyğun olmadığına göstərmişdir.[29]

9 Noyabr 2000-də, Nazirlər Komitəsi Azərbaycanla Ermənistanı Avropa Şurasına üzvlüyə dəvət edən iki və demək olar ki identik qətnamələri qəbul etdi.[30] Səbəblərdən biri, iki ölkə arasında bərabərliyə ehtiyac olduğu idi: 2000-ci ilin Sentyabrında, İtaliyanın Xarici İşlər üzrə Dövlət Katibi, Umberto Ranieri, Nazirlər Komitəsi adından AŞPA üzvlərinin önündə, "regionda təhlükəli nəticələrdən qaçmaq üçün"[31], iki ölkənin eyni zamanda üzvlüyə gəbul olunması lehinə çıxış etdi. İndi isə, Nazirlər Komitəsi, Ermənistanın üzvlüyə qəbulunu Azərbaycandaki pozuntulara görə təxirə salmaq istəmirdi.[32]

25 Yanvar 2001-də, Azərbaycan Avropa Şurasına qoşuldu. Andreas Gross, bu qərarı İsveçrəli qazet ilə uzun müsahibədə müdafiə etdi:

> "Mən düşünürəm ki, əgər demokratikləşmə uğrunda uzun yolda bizə qoşulmaq istəkləri ciddidirsə, bu ölkələri Avropa Şurasına inteqrasiya etmək, düzgündür."[33]

Başqaları kimi, Gross ümid edirdi ki, Azərbaycan indi Şuranın standartlarına uyğun olmasada, zamanla bu dəyişəcəkdir.

## *B. Seçkilər və avtoritar konsolidasiyalar*

> "Tarix boyu azğın hökmdarlar qüvvə və vərəsəlikdən yaradıldıqları kimi, seçkilərlə də dəfələrlə yaradılıblar."
>
> Giovanni Sartori[34]

Üzvlük kriteriyalarına davamlı riayətin təmin olunması üçün Avropa Şurasının üzv ölkələrinin vətəndaşları müxtəlif alətlərə etibar ola bilərlər. Milli hüquqi müdafiə vasitələri tükənəndə, vətəndaşlar üçün Avropa İnsan Haqları Məhkəməsinə (AİHM) müraciət imkanları var. Üzv olan dövlətlərinin xarici işlər nazirlərindən ibarət olan Nazirlər Komitəsi isə, AİHM-nin hökmlərinin icrasına nəzarət edir və qanunlara tabe olmayan ölkələrin üzvlüyünü ləğv

---

26 Svante E. Cornell, "Azərbaycanda Demokratiyanın Uğursuzluğu", *Demokratiya Jurnalı,* 12.2, 2001, səhifələr 126-127.

27 Svante E. Cornell, "Azərbaycanda Demokratiyanın Uğursuzluğu", *Demokratiya Jurnalı,* 12.2, 2001, səhifələr 126-127.

28 Svante E. Kornell, *Azərbaycan Müstəqillikdən Sonra*, M. E. Sharp, 2011, səh. 98.

29 "HRW: İnsan Haqqları Təşkilatları Avropa Şurasına: Azərbaycanın Qəbulu Səhvdir", 8 Noyabr 2000, http://tech.groups.yahoo.com/group/multiethnic/message/967.

30 Nazirlər Komitəsi, Qətnamə (2000) 14, "Azərbaycana, Avropa Şurası üzvlüyü üçün dəvət".

31 AŞPA müzakirəsi, 28 Sentyabr 2000, gündüz saat 3-də.

32 Svante E. Kornell, "Azərbaycanda Demokratiyanın Uğursuzluğu", *Demokratiya Jurnalı,* 12.2, 2001, səh. 128.

33 *Newe Zürcher Zeitung (NZZ)* ilə müsahibə, Yanvar 2001, Alman dilindən ESİ –nin tərcüməsi.

34 Giovanni Sartori, Yenidən Demokratiya teoriyası, Birinci hissə: Müasir müzakirə, 1987, səh. 30

etmə və ya müvəqqəti olaraq saxlamağa hüququ var. Strasburqda təşkilatın katibliyə rəhbərlik edən baş katib var. 1999-cu ildə müstəqil qurum kimi təsis edilən İnsan Haqları üzrə müvəkkil də var. Hüquq Vasitəsilə Demokratiya Uğrunda Avropa Komissiyası və daha yaxşı Venesiya Komisiyası adı ilə tanınan konstitusiya məsələləri üzrə məsləhət orqanı var.[35] Və əlbəttə də ki, 318 üzvü olan və ildə dörd dəfə Strasburqda toplanan parlament assambleyası, AŞPA-da var.[36] AŞPA üzvlərinin hamısı həm də üzv ölkələrin milli parlamentlərinin üzvləridirlər.

AŞPA-nın həmçinin ildə daha tez-tez görüşən səkkiz komitəsi var.[37] 1997-ci ildə, ölkələrin öhdəliklərinin yerinə yetirilməsində irəliləyişlərə nəzarət etmək üçün, AŞPA 84 üzvü olan xüsusi monitorinq komitəsi təsis etdi.[38] AŞPA 1999-cu ildə qeyd etdi ki:

> "Avropa Şurasının genişlənməsindən sonra, üzv dövlətlərin öhdəliklərə və vəzifələrə hörmət etməsinə nəzarət etmək Təşkilat üçün əsas prioritetdir və etibarlığının ən əsas hissəsidir."[39]

Öz vəzifəsini yerinə yetirməkdə yardım üçün, monitoring komitəsi hər nəzarət olunası ölkə üçün iki məruzəçi təyin edir. 2001-də İsveçrədən Andreas Gross monitorinq komitəsinin Azərbaycan üzrə iki məruzəçisindən biri oldu. İkincisi, İspanlı Guillermo Martinez Casan idi. Buna əlavə olaraq, Hüquqi İşlər və İnsan Haqları Komitəsi, Belçikadan Georges Clerfaytı, Azərbaycanda siyasi məhbuslar üzrə Xüsusi Məruzəçi təyin etdi. Həm Gross, həm də Clerfayt özlərini Azərbaycan hakimiyyətinə, öz öhdəliklərini xatırlatmağa həsr etdilər.

2001-ci ilin Dekabrında Azərbaycanın prezidenti bir neçə məhbusu əfv etdi. Yanvar 2002, AŞPA sessiyası, son zamanlarda həyata keçirilən prezident əfvlərini alqışlayan amma Avropa Şurasına üzv dövlətdə siyasi məhbusların davamlı mövcudluğunun qəbuledilməz olduğunu qeyd edən qətnaməni gəbul etdi.[40] Andreas Gross-da xatırlatdı ki, əgər üzv dövlətlər

> "öhdəlikləri və dəyərləri gözləməsələr, onların Şura üzvlüyü təhlükə altında ola bilər. Biz [Azərbaycan]-ı gəbul etməklə çox açıqfikirli və liberal olmuşuq, və biz onun öhdəliklərini izləməkdə çox doğru və möhkəm olacağıq."[41]

Ona göstərilən diqqət, Azərbaycanı getdikcə hirsləndirirdi. 2002-nin yayında, Azərbaycanın assambleyadaki nümayəndə heyəti, AŞPA prezidenti, Fransız, Bruno Hallerə məktub yazaraq, Andreas Grossun başqa məruzəçi ilə dəyişdirilməsini xahiş etdi. 2002-ci ilin İyulunda, İlham Əliyev iddia etdi ki, Grossa dözmək artıq mümkün deyildi:

---

35 1990-cı ildə təsis edilmişdir, və onun ekspert üzvləri ildə dörd dəfə İtaliyanın Venesiya şəhərində görüşür.

36 AŞPA üzvü, Andreas Gross, Nyu Yorkdaki təqdimatında, anlatdı ki, Parlament Assambleyası "əsl transmilli Parlamentdir, hansı ki, ildə dörd dəfə bir həftə boyu toplanır və adi sessiyalara əlavə olaraq, on komitə arasında altı dəfə görüşərək işlərini yerinə yetirir. 200 dən çox konvensiyalar vasitəsi ilə , insan haqları, demokratiya və qanunun aliliyi üçün ümümi anlayışı mövcud olan əsl Ümumavropa məkanı yaratmışdır". Baş Assambleyanın, 61-ci Plenar İclas, Milli Müşavir Andreas Grossun bəyanatı, Nyu York, 20 Oktyabr 2006.

37 2012-ci ildən əvvəl, 10 ümumi AŞPA komitəsi var idi. Lakin, yaxın zamanlarda tamamlanmış islahatların və komitələrin yenidənqurulması prosesləri nəticəsilə 2012-ci ilin yanvar ayında komitələrin sayı səkkizə endi (Qətnamə 1822 (2011) "Parlament Assambleyasının İslahatı").

38 AŞPA Qətnamə 1115 (1997), 29 Yanvar 1997.

39 AŞPA, 208 nömrəli Rəy (1999), "Ayırıcı xətlərsiz daha böyük Avropa qurmaq (Müdrik Şəxslər Komitəsinin hesabatı barədə rəy)", 25 Yanvar 1999.

40 AŞPA Qətnamə 1272 (2002), "Azərbaycanda Siyasi Məhbuslar".

41 Kənan Əliyev, "Avropa Şurasınn Məhbuslar Barədə Xəbərdarlığından Sonra, Azərbaycanın İtaətsizliyi", *EuraisaNet*, 27 Yanvar 2002.

> "Problem odur ki, o, Azərbaycan hakimiyyətini və bizim nümayəndə heyətimizi tənqid edir. Biz tənqidlərə öyrəşmişik...amma Gross bizim ölkəyə düşməndir. Və, müxalifət partiyaları tərəfindən Grossu müdafiə edən kampaniya məni çox təəccübləndirir."[42]

Əliyev Grossla görüşməyəcəyi barədə xəbərdarlıq etdi, amma qeyd etdi ki, digər məruzəçi, Guillermo Martinez Casanla görüşməyə hazırdır. Onun sözlərindən başa düşmək olardı ki, Grossla Casan arasındaki ixtilaf mövcud idi. Gross hiss edirdi ki Casan, onun həddən ziyadə tənqidi ruhunu cilovlamağa çalışırdı. O, həm də düşünürdü ki, Casan biraz tənbəl idi, və buna görə birgə hesabtların əksəriyyətini Gross özü yazırdı.

2003-də, prezident seçkiləri ilində, Azərbaycanın o vaxtki prezidenti Heydər Əliyevin səhhəti pisləşməyə başladı. Yaşlı Əliyev, oğlu İlhamin xeyrinə, öz namizədliyini geri çəkdi. Həmin il, daha sonra, o, vəfat etdi.

Oktyabr 2003 seçkilərinin keçirilməsi, Azərbaycan üçün özünü demokratiya kimi nümayiş etməyə daha bir şans olsada, AŞPA məruzəçilərinin dediklərinə görə, bu bir fəlakətlə nəticələndi. DTİHB-nin yekun hesabatı, "seçkiqabağı hədə-qorxunun geniş yayıldığını", seçkilərlə bağlı şikayətlərin və mübahisələrin hüquqi müstəvidə həll olunmaması, və səslərin sayılması prosesində ciddi qüsurların olduğunu qeyd etdi. Hesabat belə qənaətə gəldi ki, seçkilər "ATƏT öhdəliklərinə və demokratik seçkilər üçün digər beynəlxalq standartlara cavab verməyib."[43] Seçki günü, Bakıda vəziyyət xaotik idi: bir mindən çox müxalifət tərəfdarları şəhərin mərkəzində toplaşaraq anti-Əliyev şuarları səsləndirdilər və seçki saxtakarlığını pislədilər. Hökümət qüvvələri buna qarşı qəddar repressiya kampaniyası başlatdılar. Əsas müxalifət partiyalarının rəhbərlərinin hamısı daxil olmaqla yüzlərlə seçki rəsmiləri və müxalifət tərəfdarları həbs olundular.[44] Seçki sonrası mitinq iştirakçılarının təxminən 150-sinə qarşı cinayət işləri açıldı.[45]

2004-cü ilin Yanvarında, AŞPA çox sərt mətnlə yazılmış qətnamə qəbul etdi.[46] O, seçicilərin qorxudulduğunu," müxalifət tərəfdarlarının "əssasız həbs olduğunu" və hökümətpərəst mətbuatın "qərəzli" olduğunu qeyd etdi, həmçinin təhlükəsizlik qüvvələrini "həddən artıq gücdən" istifadə etdiyinə görə pislədi. Mətndə deyilirdiki "10 ildən çox müstəqil olan bu Avropa Şurasına üzv dövlətin bu cür hərəkətlər etməsi qeyri-məqbuldur". Yeni seçilmiş prezident, İlham Əliyevə xitabən qətnamə "plüralist demokratiya sahəsində, qanunçuluq və insan haqlarına hörmət üçün, sürətlə lazımi islahatları başlatmağa" çağırdı.[47]

AŞPA-nın əlində iki potensiyal sanksiya var idi. Birincisi, Azərbaycanın nümayəndə heyətinin Assambleyada oturmaq haqqından məhrum etmək idi. Bu, 1967-ci ildə Yunanistana və 1981-ci ildə Türkiyəyə qarşı tətbiq edilmişdi. İkinci variant, bu məsələdə irəliləyiş nümayış ediləndə qədər, Azərbaycanın nümayəndə heyətinin səsvermə hüququnun əllərindən alınması idi. Belə bir sanksiya 2000-ci ilin Aprelində, Çeçenistanda insan haqlarının vəziyyətinə görə,

---

42 Echo-az.com, http://www.echo-az.com/archive/2002_07/376/facts.shtml#3.

43 ATƏT/ DTİHB, "Azərbaycan Respublikasının 15 Oktyabr 2003 Prezident Seçkiləri, Yekun Hesabat", 12 Noyabr 2003, səh. 1.

44 ATƏT/ DTİHB, "Azərbaycan Respublikasının 15 Oktyabr 2003 Prezident Seçkiləri, Yekun Hesabat", 12 Noyabr 2003, səh. 1.

45 Malcolm Bruce, "Hesabat: Azərabycan siyasi məhbuslar barədə Qətnamə 1359 (2004) ardınca təqib", Doc. 10564, 31 May 2005, paraqraf 58.

46 AŞPA Qətnamə 1358 (2004), "Azərbaycanda Demokratik Orqanların Funksiyası", 27 Yanvar 2004.

47 AŞPA Qətnamə 1358 (2004), "Azərbaycanda Demokratik Orqanların Funksiyası", 27 Yanvar 2004, bölmə 2.

Rusiyanın nümayəndə heyətinə şamil olunmuşdu.[48] Bu dəfə AŞPA Azərbaycana xəbərdarlıq verdi: əgər irəliləyiş olmasa, "Assambleyada Azərbaycanın parlament nümayəndə heyətinin etimadnaməsinin ratifikasiyasının müzakirəsi yenidən lazım gələ bilər."[49] 2004-cü ilin Oktyabrında, AŞPA-dan başqa bir qətnamə, Azərbaycanın "beynəlxalq səviyyədə tanınmış standartlara uyğun, azad və ədalətli seçkilər keçirməsi qabiliyyəti"-nin növbəti sınağı kimi 2005-ci ilin Oktyabrına təyin edilmiş edilmiş parlament seçkilərini elan edirdi.[50]

2005-ci ilin əvvəlində, Azərbaycan hakimiyyəti, Andreas Grossu ölkəyə buraxmamaqla hədələdi. Xarici İşlər Naziri, Vilayət Quliyev xəbərdarlıq etdi ki, Grossun gəlməsini istəmir. Parlamentin spikeri, Murtuz Ələsqərov AŞPA prezidenti Bruno Hallerə məktub yazaraq, dedi ki, "Azərbaycanda heç bir rəsmi Grossla əlaqə saxlamayacaq". O həmçinin Grossun dəyişdirilməsini tələb etdi.[51] Amma, Assambleya məruzəçisinin arxasında möhkəm durdu. Sonunda, Gross Azərbaycana səfər edə bildi.

*Cədvəl 2: AŞPA Komitələri və Azərbaycanın Məruzəçiləri*

| | |
|---|---|
| | **Monitorinq Komitəsi (iki məruzəçi)** |
| 2001 – 2004 | Andreas Gross (isveçrəli) və Guillermo Martinez Casan (İspaniyalı) |
| 2004 – 2006 | Andreas Gross (İsveçrəli) və Andres Herkel (Estoniyalı) |
| 2006 – 2007 | Tony Lloyd (Britaniyalı) və Andres Herkel (Estoniyalı) |
| 2007 – 2009 | Evgeniya Jivkova (Bolqar) və Andres Herkel (Estoniyalı) |
| 2009 – 2010 | Joseph Debono Grech (Maltalı) və Andres Herkel (Estoniyalı) |
| since 2010 | Joseph Debono Grech (Maltalı) və Pedro Agramunt (İspaniyalı) |
| | **Hüquqi İşlər və İnsan Haqları Komitəsi (siyasi məhbuslar üçün bir məruzəçi)** |
| 2001 – 2003 | Georges Clerfayt (Belqiyalı) |
| 2003 – 2005 | Malcolm Bruce (Britaniyalı) |
| 2005 – 2009 | *Məruzəçi yoxdur* |
| since 2009 | Christoph Strasser (Alman) |

İyun 2004-də, İspaniyalı Casan, həmməruzəçi kimi Estoniyalı, psixoloq, tarixci, şair və bir neçə mədəni jurnalların redaktoru, Andres Herkel ilə əvəz olundu. Aprel 2005-də Gross və onun yeni həmkarı Azərbaycana səfər etdilər. Orada aşkar etdikləri onları dərindən narahat etdi:

> "Saxtakarlıq və zorakılıqla ləkələnən 2003 prezident seçkilərindən sonra, ölkədə stabillik əsas insan haqlarına hörmətin tapdanması hesabına təmin olunubdur...İndiki siyasi mühitdə, nə seçki sistemi nə də ki, əsas dövlət qurumları və hüquqi sistem ədalətli seçkilər üçün kifayət qədər təminat verə bilər."

Gross və Herkel, o nəticəyə gəldilər ki, "gördüyümüz açıq faktlar, bizim fikrimizcə bir demokratiya üçün qəbuledilməzdir...Biz dərin təəssüflə demək istərdik ki, həmsöhbətlərimizin əksəriyyəti, yumşaq desək, bizi məyus və inamsız etdi."[52] Bakı-Tblisi-Ceyhan kəmərinin

---

48 AŞPA Müzakirələri, 27 Yanvar 2000 və 6 Aprel 2000. Və Siyasi Məsələlər Komitəsi "Rusiya parlament nümayəndə heyətinin etimadnaməsi" (Docş 8949), Matyas Eorsi, 23 Yanvar 2001, izahedici memorandum, II A 2.

49 AŞPA Qətnamə 1358 (2004), "Azərbaycanda Demokratik Orqanların Funksiyası", 27 Yanvar 2004, bölmə 16.

50 AŞPA Qətnamə 1398 (2004), "Azərabycanda Demokratik Orqanların Funksiyası Barədə Qətnamə 1358-in (2004) İcrası", 27 Yanvar 2004

51 Şahin Rzayev, "Azərbaycan Avropa Şurasına Güzəştə Gedir", *IWP,* CRS-in 139-cu buraxılışı, 21 Fevral 2005.

52 AŞPA,"Azərbaycanda Demokratik Orqanların Funksiyası - Hesbat", Doc. 10569, 3 İyun 2005.

tezliklə açılacağını nəzərdə tutan həmməruzəçilər Azərbaycanın tezliklə "neft lənəti"-nin əziyyətini çəkəcəyindən narahat idilər. Onlar xəbərdarlıq etdilər ki, boru kəmərinin istismarı vasitəsilə yaranan gəlirlər "bəzi rəsmiləri və siyasətçiləri demokratiyadan yayınmağına səbəb ola bilər."[53]

AŞPA daha açıq xəbərdarlıqlarla təhdid edirdi. 2005-ci ilin iyununda qəbul edilmiş başqa bir qətnamə, Noyabra təyin edilmiş parlament seçkilərinin "ölkənin demokratik etibarlığı üçün həlledici sınaq olduğunu"[54] təkrarladı. 50 üzvlük, və indiyədək ən böyük AŞPA seçki nəzarət missiyası Azərbaycana səfər etdi.

2005-ci ilin Noyabr seçkiləri sübut etdi ki, Azərbaycanın demokratik irəliləyişindən nikbin olmağa heç bir səbəb yox idi. ATƏT/ DTİHB hesabatı, seçki qutularına saxta bülletenlərin doldurulması və başqa manipulyasıyalara görə, sayılan bulletenlərin 41 faizini, "pis" və ya "çox pis" qiymətləndirdi.[55] Seçki komissiyaları olduqları seçki dairələrinin 34 faizində nəticələrin hesablanmasını "pis" və ya "çox pis" kimi qiymətləndirdilər.[56] Müxalifətin mitinqləri bir daha polis zorakılığı ilə qarşılaşdılar. 26 Noyabr 2005-də Andreas Gross öz sarsıntısını dilə gətirdi:

> "Ola biləcək ən pis şey baş verib. Öz məsuliyyətsiz hərəkətləri ilə, hökmdarlar camaatın demokratik ümidlərini öldürdülər. Bu ölkədə müsbət dəyişikliklərin mümkün olduğuna daha heç kim inanmır."[57]

Vəziyyəti daha da pisləşdirən isə, Azərbaycanda seçkiləri təşkil etmək məsuliyyətini daşıyan inzibati orqan, Mərkəzi Seçki Komissiyası, və Konstitusiya Məhkəməsinin 125 seçki dairəsindən 10-unda naticələri ləğv etməsi və yenidə 2006-cı ilin Mayında təkrar seçkilər keçirmək qərarı idi. Bu on dairədən beşində, ən böyük müxalifət partiyalarından biri, Azərbaycan Xalq Cəbhəsinin rəhbəri Əli Kərimli daxil olmaqla, tanınmış müxalifətçilər qələbə qazanmışdı.[58]

Nəticədə, qazandıqları yerlərdən məhrum edilmiş beş müxalifətçi namizəd Avropa İnsan Haqları Məhkəməsinə müraciət etdilər. AİHM məhkəmələrin hamısında onların xeyrinə hökmlər oxudu. Qələbəsi ləğv edilmiş, müxalifətçi və məşhur ifaçı, Flora Kərimovanın məhkəməsində, Sentyabr 2010 qərarında AİHM o qənaətə gəldi ki, onun qələbəsinin ləğv edilməsi "seçki prosesinin düzgün aparılmasına hörmətsizlik nümayiş etdirib və bu, azad seçki haqqı ideyasının Konvensiyadakı anlamına uyğun ola bilməz."[59] Müxalifət rəhbəri Əli Kərimliyə gələndə, AİHM qeyd etdi ki, "bu mübahisə doğuran qərar, ərizəçiləri parlamentə seçilməklə faydalanmaqdan qanunsuz olaraq məhrum edib."[60]

ABŞ-ın Bakıdaki səfirliyi, seçkilərin nəticəsini ən birinci alqışlayanlar sırasında olanda, Azərbaycan müxalifəti şoka düşdü. 2 Dekbarda, konstitusiya məhkəməsi bu seçki dairələrindəki nəticələri ləğv etdiyi gün, ABŞ səfirliyi bir daha təsdiq etdi ki, onlar "yeni

---

53 AŞPA,"Azərbaycanda Demokratik Orqanların Funksiyası - Hesbat", Doc. 10569, 3 İyun 2005.

54 AŞPA Qətnamə 1456 (2005), "Azərbaycanda Demokratik Orqanların Funksiyası", 22 İyun 2005.

55 ATƏT/ DTİHB, "Azərbaycan Respublikasının 6 Noyabr 2005 Parlament Seçkiləri, Yekun Hesabat", 1 Fevral 2006.

56 ATƏT/ DTİHB, "Azərbaycan Respublikasının 6 Noyabr 2005 Parlament Seçkiləri, Yekun Hesabat", 1 Fevral 2006.

57 http://www.andigross.ch/html/site444.htm.

58 MSK Noyabr 2005-də 4 seçki dairəsində (9 saylı Binəqədi ikinci, 38 saylı Nizami ikinci (Gəncə), 42 saylı Sumqayıt ikinici və 110 saylı Zaqatala) nəticələri ləğv etdi. Konstitusiya Məhkəməsi isə, 2 Dekabr 2005-də 6 seçki dairəsində (31, 44, 69, 103, 106 və 119 saylı dairələr) nəticələri ləğv etdi.

59 Kərimova Azərbaycana qarşı, Hökm, 30 Sentyabr 2010.

60 Hacılı Azərbaycana qarşı, Hökm, 10 Yanvar 2012.

seçilmiş parlamentçilərlə sıx əməkdaşlıq etməyi səbirsizliklə gözləyirlər”. [61] Avropa Şurasının Bakıdaki mətbuat konfransında, Gross qeyd etdi ki, “parlamentdə müxalifət olmayarkən, parlamentdə müxalifətlə əməkdaşlıq etmək mümkün deyil.”[62] AŞPA-nın seçki müşahidə missiyasının rəhbəri, Leo Platvoet qeyd etdi ki, qarşıdan gələn Yanvar 2006-cı il sessiyasında, AŞPA Azərbaycanın yeni seçilmiş parlamentini təsdiq etməktən imtina etmək qərarını nəzərdən keçirə bilər.[63] AŞPA, müxalifətin Azadlıq Blokunun son ümidi idi. Blokun təmsilcisi qeyd etdi ki, “Əgər AŞPA, Azərbaycanın parlament nümayəndə heyətinin mandatını təsdiqləsə, Azərbaycan xalqının demokratiyaya son ümidi məhv olacaq.”[64]

15 Dekabr 2006-da, AŞPA-nın Monitorinq Komitəsi, Azərbaycanın seçkilərini müzakirə etmək üçün Parisdə görüş keçirdi. Andres Herkel, sanksiyalar təklif etdi. Komitədə rəylər haçalandı və qəti qərar barədə razılıq əldə edilmədi. [65] Bu məsələ Strasburqdaki Yanvar 2006 AŞPA sessiyasına təxirə salındı.

Yanvar 2006-da Azərbaycanın Avropa Şurasına üzvlüyünün beşinci ili tamam oldu. Assambleyadan israrlı xəbərdarlıqların heç bir təsiri olmamışdır. İndi isə, Andreas Gross, Andres Herkel və Leo Platvoet, dəqiq hərəkət etməyni vacıb olduğunu düşünürdülər və hətta gözləyirdilər. Onarı xoşagəlməz bir surpriz gözləyirdi.

## *C. Strasburqda Üzləşmə (2006)*

23 Yanvar 2006-da, AŞPA sessiyasının Strasburqun böyük yarimdairəsindəki açılışında, Andreas Gross, Azərbaycanın yeni seçilmiş nümayəndə heyətinin etimadnaməsinə etiraz etmək üçün bir vəsatət qaldırdı.[66] O,iddia etdi ki, sonuncu seçkilər “Avropa Standartlarına uyğun keçirilməmişdir”, və onların nəticələri “qəbul edilə bilməz”.[67] Altı nəfərlik nümayəndə heyətinə etimadnamə verməkdən imtina etmək, güclü mesaj verə bilərdi: kütləvi manipulyasıya görə Bakıdaki parlamentin demokratik legitimliyi yox idi. Gross Assambleyanı “möhkəm” olmağa çağırdı.

Sonra isə müzakirə Assambleyanın Monitorinq Komitəsi və onun 84 üzvünə ötürüldü. Hər iki həmməruzəçi tərəfindən dəstəklənsə də, Azərbaycan heyətinin səsvermə hüquqlarının dayandırılması təklifi ən kiçik fərqlə, 22 səsə qarşı 24 səslə, məğlub oldu.[68]

25 Yanvarda, Monitoring Komitəsindən gələn dişsiz qətnamə layihəsi bir daha müzakirə olunmaq üçün yarımdairəyə köçürüldü. Britaniyanın Leyboristlər Partiyasından, Tony Loyd, xəbərdarlıq etdi ki, əgər Assambleya sankisya qəbul etməsə, onda AŞPA-nın etimadlığına böyük zərbə dəyə bilər. Buna görə, Loyd Monitorinq Komitəsinin qətnamə layihəsinə dəyişiklik təklif etdi. Dəyişiklik, Azərbaycan nümayəndə heyətinin etimadnaməsini “Qayda 8.5-ə müvafiq olaraq, qeyd olunan sahələrin hamısında inandırıcı və əhəmiyyətli irəliləyiş olana qədər, onun üzvlərinin

---

61 ABŞ Bakı Səfirliyi, Press Reliz, 2 Dekabr 2005.
62 Karl Rahder, “Avropa Şurası Azərbaycanı, ABŞ-ni səsverməyə məzəmmət edir”, 5 Dekbar 2005.
63 Karl Rahder, “Avropaa Şurası Azərbaycanı, ABŞ-ı səsverməyə məzəmmət edir”, 5 Dekbar 2005.
64 *Eurasia Insight*, “Azərbaycanın müxalifət liderləri AŞPA-ya müraciət etdi”, 19 Dekabr 2005.
65 *Eurasia Insight*, “Azərbaycanın müxalifət liderləri AŞPA-ya müraciət etdi”, 19 Dekabr 2005.
66 AŞPA-nın prosedurlar Qanunlarında (Qanun 8.2) bu iddialar hesab edir ki, “Avropa Şurasının əsas prinsiplərinin ciddi pozuntusu” baş verib, və ya “vəzifələrə və öhdəliklərə davamalı şəkildə tabe olunmayıb”.
67 AŞPA 2006 Adi Sessiya (Birinci hissə), Hesaabat. Birinci iclas, 23 Yanvar 2006, gündüz saat 3-də.
68 AŞPA müzakirələri, 26 Yanvar 2006, gündüz saat 3-də, Frundadın dediklərinə baxın.

Assambleyada səsvermə hüquqlarını dayandırmaq şərti ilə" ratifikasiya etməyə çağırdı". O vurğuladı ki, əks təqdirdə "biz Avropa Şurasının dəyərlərinin gözətçiləri kimi vəzifəmizdə uğursuz olacağıq, və həm də, Avropa Şurasının xalqları və vətəndaşları adından ən yüksək demokratik standartların qoruyucuları kimi öz vəzifəmizi yerinə yetirə bilməyəcəyik."[69]Gross, Platvoet və Herkel daxil olmaqla, bir neçə AŞPA üzvü, çıxış edərək Loydun təklif etdiyi dəyişikliyi dəstəklədilər. Herkel dedi ki, "Avropa Şurasının dəyərlərinə uyğun anlamla, demokratiya kimi fenomen Azərbaycanda yoxdur."[70]

Gələcək illərdə Azərbaycanla bağlı müzakirələrin hamısında üstünlük qazanan və diqqət çəkən bir koalisiya, onlara qarşı mübarizə apararaq hər hansı sanksiyanın əleyhinə çıxdı.

Onlardan biri Leonid Slutsky idi. O, Strasburqda ən böyük nümayəndə heyətlərindən biri olan, Rusiya nümayəndə heyətinin üzvü və Vladimir Jirinovskinin Liberal Demokrat Partiyasınıdan (RLDP) idi. Slutsky, İlham Əliyevin dostu idi – belə ki 2009-da, Azərbaycan prezidenti ona "Dostluq" medalını təqdim etmişdi. Slutskyyə görə sanksiyalar ideyası səhv idi. O dedi ki:

> "Avropa Şurasında bir neçə demokratiya var və bir gün onların birində legitim və ya ədalətli seçkilərin keçirilməyəcəyinə qarantiya yoxdur.Bu haldadamı həmin ölkənin etimadnaməsi tanınmayaq və o səsvermə hüuquqndan məhrum ediləcək? Bu məqbuldurmu? Bu, Avropa Şurasında iki pilləli sistem yarada bilər."

Sonra isə, Portsmutdan olan Britaniyalı Liberal Demokrat Maykl Hənkok çıxış etməyə qalxdı. O Slutsky ilə razılaşdı. Bir ölkə Avropa Şurasına birləşdikdən sonra sanksiyaların mənası yoxdur. Onun yerinə, Hənkok səbr tələb olduğunu dedi:

> "Əgər üzvlər Azərbaycanı bayıra atmağa səs versələr, onda onlar bu məsələ ilə yalnız jest siyasəti oynayırlar. Cənab Loydun təqdim etiyi dəyişikliyin faydası, siz mənə qasırğaya çıxarkən çətirinizi verməklə gördüyünüz fayda ilə eynidir, cənab Prezident. Bu mənasızdır ona görə ki, biz Azərbaycanı artıq qəbul etmişik...İndiki vəziyyətlərinə çatmaq üçün bizim ölkələrimiz yüzlərlə il inkişaf etməli oldular, və indi biz Azərbaycan kimi ölkələrdən on ilin içində eyni nəticələr əldə etmələrini gözləyirik. By açıq-aydın haqsızlıqdır və qəbuledilməzdir."

Cənub-qərbi İngiltərədə yerləşən kənd rayonu Şimalı Dorsetdən başqa bir Britaniyalı, Mühafizəkar, Robert Valter, Hənkokla razılaşdı. Valter problemlərin olduğunu etiraf etdi: "Seçkilər zamanı mən Azərbaycandaydım. Bir çox hallarda, seçki biarbırçı idi." Amma, o dedi ki, bu manipulyasıyaların nəticələrə təsiri olmamışdır. O soruşdu ki, "Əgər onlar tamamilə mükəmməl keçirilsəydilər, nəticə heç fərqli olardımı?". "Mənim orda müşahidə etdiklərim, məni o qənatətə gətirib çıxardı ki, o seçkilərin nəticələri yəgin ki heç də fərqli olmazdı." Qısamüddətli müşahidəçi kimi, Valter Azərbaycanda dörd gündən az olmuşdur.

İki Britaniyalınatiq özlərinə Alman müttəfiq tapdılar. Bavariyadan, Xristian Demokrat və Alman Daxili İşlər Nazirliyinin keçmiş parlament dövlət katibi, Eduard Lintner də 2005-ci ilin seçki müşahidə missiyasında iştirak etmişdi. O da Bakıya qarşı sanksiyalara əsas olmadığını iddia etdi:

---

69 AŞPA 2006 Adi Sessiya (Birinci hissə), Hesaabat. Beşinci iclas, 25 Yanvar 2006, gündüz saat 3-də.

70 AŞPA 2006 Cari Sessiya (Birinci hissə), Hesabat. Beşinci iclas, 25 Yanvar 2006, gündüz saat 3-də.

> "Aşağıdan yuxarıya demokratik ruhun yaranması üçün, yetişmiş demokratiyalara, həqiqətən də demokratik olmağa on ildən çox vaxt lazım idi. Azərbaycan nümayəndə heyətinə qarşı sanksiyalar xeyirdən çox ziyan vura bilər."

Azərbaycanın ən qızğın müdafiəçilərindən biri, Türkiyədə ən böyük kurort şəhəri Antalyadan olan və hakim AKP partiyasının təmsilçisi Mevlut Çavuşoğlu da öz fikirlərini bildirdi. "Mən də razıyam ki, seçkilər Avropa Şurasını məyus edib." Amma onu əsas narahat edən, Azərbaycan qurumlarının qərarlarını sorğulayan həmməruzəçilərin davranışı idi:

> "Təəssüf ki, cənab Gross özünü Azərbaycanın Parlamenti və Azərbaycanın Konstitusiya Məhkəməsindən daha yüksək sayır."

Grossa dönərək, birbaşa ona müraciət etdi:

> "Cənab Gross, siz mənim yaxşı dostumusunuz, amma mən bunu deməliyəm. Biz bu gün nə edirik? ...Biz Azərbaycan nümayəndə heyətinin etimadnaməsinə qarşı etiraz etməməliyik, və biz onların səsvermə hüquqlarını dayandırmamalıyıq. Biz Maydaki seçkiləri gözləməliyik. Mayda demokratik və ədalətli seçkilər olmasa, Assambleya hər addıma hazırdır."

Bakıdan gələn nümayəndələr də daha çox vaxt üçün xahiş etdilər. Onlardan biri, Gültəkin Hacıyeva, dedi ki: "Bəli, seçkilərdə bəzi saxtakarlıqlar, qaydasızlıqlar və çatışmazlıqlar var idi, amma heç olmaşa seçkilər keçirildi." Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov Azərbaycana cəza yerinə köməyin lazım olduğunu vurğuladı:

> "Əgər bizi cəzalandırmaq istəyirsinizsə, onda bunu prosesin ortasında yox, sonunda edin. Seçki prosesi hələ davam edir. Mənim həmkarımın qeyd etdiyi kimi, May ayında yenidən seçkilər keçiriləcək. Əgər Avropa Şurası Azərbaycandakı vəziyyəti nəzərə almaq istəyirsə, onda zəhmət olmasa bunu İyunda edin. Bizə şans verin."[71]

Bu isə Andres Herkeli, yenidən keçiriləcək seçkilərin problemleri həll edə bilməyəcəyini qeyd etməyə məcbur etdi: "Mən bunu çox aydın qeyd etmək istəyirəm ki, 10 dairədə yenidən keçirilməli olan seçkilər, orada fırıldaqçılığın daha bəlli olduğuna görə yox, amma əks səbəbə görədir. Bəzi hallarda, seçki nəticələrini ləğv etmək, müxalifət namizədlərinin parlamentə seçilməsinə qarşı silah kimi işlədildi."

Sonda, bunun heç bir faydası olmadı. Səsvermə hüquqlarına təklif olunmuş dəyişiklik 67 səsə qarşı 100 səs və 16 nəfərin səsverməkdən imtina etməsi ilə rədd olundu.[72] Bir yandan AŞPA sərt qətnamə (1480) qəbul edrək onu vurğuladı ki, "Azərbaycanda demokratik prosesə tamamilə bir zərbə vurulub, siyasi dialoq təhlükə altındadır və yeni seçilmiş parlament Azərbaycan xalqının demokratik etimadnaməsinə sahib deyil."[73] Qətnamə bir necə "təcili" tədbirlərin siyahısını təqdim etdi".[74] Amma başqa bir yandan

71 AŞPA 2006 Adi Sessiya (Birinci hissə), Hesaabat. Beşinci iclas, 25 Yanvar 2006, gündüz saat 3-də.

72 *Day.az*, "AŞPA, Azərbaycan nümayəndə heyətinin mandatını qəbul etdi", 25 Yanvar 2006.

73 AŞPA Qətnamə 1480 (2006), "Mühum səbəblərə görə Azərbaycan parlament nümayəndə heyətinin hələ də qəbul edilməmiş etimadnaməs məsələsi", 25 Yanvar 2006.

74 Buna seçki saxtakarlıqlarına araşdırmalar da daxildir və bu araşdırmaların ictimaiyyətləşdirilməsi . Ədalət mühakiməsinin həyata keçirilməsi, seçki qanunlarının dəyişdirilməsi (seçki komissiyalarının tərkibinə xüsusi diqqət yetirərəq) və həmçinin toplaşma və ifadə azadlığı ilə media plüralizminin tam təmin olunması.

o qərara gəldi ki, heç bir addım lazım deyil. Hər iki həmməruzəçinin təklifi rədd edildi. Şura öz seçki müşahidə missiyasının nəticələrini bir yana qoydu.

Andres Herkel düşünürdü ki, Yanvar 2006-dakı səsvermə dönüş nöqtəsi idi, nəinki Azərbaycan üçün, amma həmçinin bütün Avropa Şurası üçün. Bu onu göstərdi ki, hətta ciddi günahkarlara qarşı cüzi sanksiyalar qəbul etməkdə belə, AŞPA-ya etibaretmək mümkün deyildi. Bunun ardınca baş verənlər təəssüflə gözlənilirdi. 2006-cı il Aprelin sonunda yenidən keçiriləsi seçkilərdən əvvəl Azərbaycana gələn AŞPA missiyası, “Assambleya irələyiş tələb etdiyi sahələrdə dəyişiklik üçün heç bir siyasi iradə mövcud olmadığını” qeyd etdi.[75] Yanvar qətnaməsindəki tövsiyələr tətbiq edilməmişdir. Seçki qanunlarına dəyişiklik edilməmişdir. Bir neçə müxalifətyönlü jurnalistlər döyülmüşdü. Seçkilər yenidən keçiriləndə, iştirak edən müxalifətçilərdən heç biri parlamentdə yer qazanmadı. Artıq, Azərbaycanın yeni parlamenti tamamilə İlham Əliyevin hakim Yeni Azərbaycan Partiyası tərəfindən idarə olunurdu.

Bakıdakı hakimiyyət özünü cəsarətli hiss edirdi. May 2006-da Gross və Herkel, Bakıda öyrəndilər ki, rəsmilərin heç biri onlarla görüşmək istəmir.[76] Bakıdan qayıtdıqdan sonra, Gross AŞPA-ya bunları dedi:

> “seçkilər uğursuz keçdilər, və təkrarlanan seçkilər Noyabrda yaranan pis təəssüratlarımızı dəyişməyib. Lakin biz bir daha etimadnaməyə etiraz etməyəcəyik, amma Azərbaycan hakimiyyətini doğru yola cəlb etmək istəyirik. Onların legitimliyi zəif olduğunu görə, bu insanların bu gədər gücə layiq olmadıqlarını düşünürük.”

2006-cı ilin yayında, Gross dərk etdi ki, istefa etməkdən başqa ona başqa yol qalmamışdı. O, beş il ərzində Azərbaycanda Avropa Şurasının əhəmiyyətini artırmaq üçün əlindən gələni etmişdi. Həbsdəki təcrübələri barədə yazdığı məqalələrdə, siyasi məhbus olmuş jurnalist Eynulla Fatullayev bunu yazmışdır:

> “Grossun tanış adı, bizim həbslərdə uzun müddət idi ki, çox işlənirdi, və hər məhbusun dodaqlarından səslənirdi. Onların anlayışında, Gross Avropanın və onun Azərbaycanda azad edici missiyasının təmsilçisi idi...bu məntiqli idi, ona görə ki, qismən Grossun səylərilə ümumən 1000 nəfər siyasi məhbus həbsdən azad edilmişdi...Məhbusların hamısı Grossun müqəddəs missiyasına inanırdı, ona baxmayaraq ki, o artıq Çeçenistan məruzəçisi mandatını almışdı. Mən onları bunun əksinə inandırmağa çalışmadım. Azadlıqdan məhrum edilmiş insanın, xəyalını niyə əlindən almaq lazımdır?”[77]

## III. KÜRÜ DİPLOMATİYASI

### *A. AŞPA-nın susdurulması*

> “Azərbaycanın uzun müddətdir ki, təməl azadlıqların, insan haqlarının və demokkratiyanın inkişaf etdirilməsi sahəsində zəif fəaliyyəti təbii olaraq sual doğurur: Avropa Şurası nə ilə məşğuldur və ölkənin bu təşkilatdakı üzvlüyünün nə mənası var?”
> Azad Avropa/Azadlıq Radiosu, “Azərbaycanda Avropa Şurasının əhəmiyyəti varmı?”, 2008-ci il

[75] AŞPA hesabatı, “Azərbaycan parlament nümayəndə heyətinin etimadnaməsinin müzakirəsi ilə bağlı Qətnamə 1480-nin (2006) icrası”, Doc. 10959, 12 İyun 2006, bölmə 15.

[76] AŞPA hesabatı, “Azərbaycan parlament nümayəndə heyətinin etimadnaməsinin müzakirəsi ilə bağlı Qətnamə 1480-nin (2006) icrası”, Doc. 10959, 12 İyun 2006, bölmə 23.

[77] Eynulla Fətullayev, “Necə ayıb qorxunu məğlub edir. 7-ci hissə”, *Radio Azadlyq*, 19 Dekabr 2011.

2008-ci il İyunun 27-də President Əliyev ABŞ Dövlət Katibinin İnsan Haqları üzrə müavini David Kramerlə Azərbaycanda demokratiya və insan haqları barədə söhbət etmək üçün iki saatlıq görüş keçirib. ABŞ səfirliyinin teletaypları Əliyevi vəziyyətə nəzərət edən və Amerikanın geostrateji maraaqlarından xəbərdar olan bir lider kimi təsvir edir. Teletayplarda deyilir ki, Kramerlə az qala iki saatlıq görüşündə Əliyevin mövqeyi aydın və aşkar idi: "Azərbaycan münasibətlərin bütün aspektlərinə tam bir paket şəklində baxır və burada heç bir element başqa bir elementdən ayrılıqda baxıla bilməz.

Əliyev etiraf etmişdir ki, "biz yəqin ki, heç vaxt Qərbi Avropra demokratiyasına bənzər bir system yaratmaq imkanında olmayacağıq".

> "Bizim qonşularımız dünyanı məhv etmək potensialına malikdirlər və Azərbaycan özünün enerji siyasəti ilə onlar üçün göz dağıdır. Rusiya Azərbaycandaklı demokratik inkişafdan özünün maraqları naminə istifadə edir, -deyib Əliyev, - Bizim müstəqilliyimiz bizim başlıca narahatlığımızdır və biz indiyədək onu müdafiə edə bilmişik. Biz Rusxiyanın satdelliti və ya İslam dövləti olmamışıq".

Əliyev Kramerin təklif etdiyinə rəğmən bildirmişdir ki, o, demokratiya və insane haqlareının inkişafının ikitərəfli münasibətlərdəki roluna inanmır. Əvəzində o bildirmişdir kli, "hazırkı əməkdaşlıq əladır və o təsəvvür edə bilmir ki, münasibətlər daha necə bundan yaxşı ola bilərdi". O vurğulamışdır ki, Dağlıq Qarabağ münaqişəsi burada istisna təşkil edir.

Bununla belə, tamamilə aydın idi ki, Əliyev ölkəsində insane haqlarının vəziyyətinin xaricdən tənqid olunmasına çox həssas yanaşır. Teletaypda bildirilir ki, "Əliyev ABŞ-ın bu yaxınlarda Azəfbaycandakı demokratiya tərəqqisini tənqid etməsini şəxsən ona qarşı təhqir kimi qəbul edib". O Kramerə bildirib ki, "Azərbaycab sürətlə inkişaf edən ölkədir və biz avtoritasr rejim kimi tanınmaq istəmirik". "Mən mətbuatın qənimi adlandırılmışam və bu ədalətli mühakimə deyil" – xdeyə o əlavə edib. "Siz ikili standartlardan çıxış edirsiniz və biz qeyri-demokratik ölkə kimi tanınmaq istəmirik" – deyib Əliyev. O daha sonra Avropa Şurasından söz açmış və bu təşkilat haqqında öz laqeyd mövqeyini ifadə etmişdir:

> "Bizim Avropa ilə əla münasibətlərimiz var və məni Avropa Şurası qətiyyən narahat etmir. Mən onlara artıq demişəm ki, sanksiyalar olsa, biz çıxacağıq. Onlar bilirlər ki, mən zarafat eləmirəm".[78]

Əliyevin Kramerlə söhbətindən az sonra müxalifətçi Azadlıq qəzetinin 25 yaşlı müxbiri Aqil Xəlil Azərbaycanı tərk edərək Fransaya mühacirət etmişdir. Korrupsiya barədə xəbərləri təhqiq edən Xəlil 2008-ci ilin fevral ayında milli təhlükəsizlik zabitləri tərəfindən qəddarcasına döyülmüşdür. Bu basqın yoldan ötən biri tərəfindən videoya yazılmışdır və YouTube saytında bu süjeti görmək və əlaqədar şəxsləri tanımaq mümkündür.[79] Xəlil bildirmişdir ki, hücum edən şəxslərdən birini onu basqından bir neçə gün əvvəl izləyən adam kimi tanımışdır. Martın 13-də Xəlil bir daha hücuma məruz qlmış və bir qup şəxs tərəfindən bıçaqlanmışdır. Aprelin 2-də dövlətə aid AzTV və prezidentin əmisioğlunun mülkiyyətində olan Lider telekanalları Sergey Strekalin adlı birisinin 30 dəqiqəlik videoçıxışını efirə yaymışdır. Həmin çıxışda Strekalin Xəlilin sevgilisi olduğunu və ona qısqanclıqla zəminində hücum etdiyini bildirmişdir. Lider telekanalı Xəlilin guya müxalifət lideri Əli Kərimlinin çevrəsindəki "homoseksualist qrupa" aid olduğunu elan emişdir. Xəlil israr etmişdir ki, o, Strekalini əvvəllər heç vaxt görməmişdir və o, basqın edənçlərin arasında olmamışdır. Buna

[78] *Wikileaks*, http://wikileaks.org/cable/2008/07/08BAKU652.html.
[79] *CPJ*, "Gündəlik müxalifət qazetinin reportyoru ofisinin yanında bıçaqlandı", 14 Mart 2008.

baxmayaraq Xəlil 2008-ci il may ayının 7-də bir daha hücuma məruz qalmışdır. İki nəfər onu Bakı metrosunda relslərin üzərinə itələməyə cəhd göstərmişlər.[80] Məhz bundan sonra Xəlil Bakıda salamat olmayacağını başa düşmüş və Bakını tərk etmişdir.

Xəlilin məsələsi həmin dövrdə jurnalistlərin susdurulması və təhdi cəhdlərindən yalnız biri olmuşdur. 2005-ci ilin martında təhqiqatçı journalist Elmar Hüseynov Bakıda öz mənzilinin kandarında güllələnətək öldürülmüşdür. Bu cinayətin üstü indiyədək açılmamışdır. 2006-cı ildə hökuməti tənqid edən redaktorlar və yazarlar oğurlanmış, döyülmüş və hücumlara məruz qalmışlar. Vəziyyət getdikcə korlanmaqda idi. Müxalifət qəzetləri və xəbər agentlikləri binalarından çıxarılırdı. Ölkənin yeganə müstəqil televiziya stansiyası ANS müvəqqəti olaraq bağlanmışdı. 2008-ci ilin mart ayında müxalifətin əsas orqanı olan Azadlıq qəzetinin keçmiş baş redaktoru Qənimət Zahidov dörd il müddətinə azadlıqdan məhrum edilmişdi. Zahidov qondarma xuliqanlıq ittihamı ilə 2007-ci ilin noyabrında həbs olunmuşdu. Jurnalistləri Müdafiə Komitəsi beynəlxalq təşkilatı media sahəsində olan vəziyyəti fəlakətli adlandırmışdır.[81]

2008-ci ilin iyulunda Azərbaycanda keçiriləcək prezident seçkilərinə üç ay qalarkən ölkənin aparıcı jurnalistlərindən Xədicə İsmayılova Avropa Şurasının Baş Katibi və Birləşmiş Krallıq parlamentinin üzvü Terri Deyvisdən müsahibə almışdır. O belə bir sual vermişdir: "Siz düşünürsünüzmü ki, indi Azərbaycanda media azadlığı, ölkə 2001-ci ildə Avropa Şurasına daxil olduğu vaxtdakından daha çoxdur?". Onun cavabı bu olmuşdur ki, bunu qiymətləndirmək "qeyri-mümkündür". Xədicə İsmayılova qeyd edəndə ki, Baki Avropa Şurası Venesiya Komissiyasının bir sıra tövsiyələrini tətbiq etməmişdir, Davis belə bir izahat vermişdir: "Tövsiyə tövsiyədir. Adamların ixtiyarı var ki, onları qəbul etməsinlər".[82] Daha sonra journalist Davisin qarşıdan gələn seçkilərdən gözləntilərini soruşmuşdur. Davisin cavabı belə olmuşdur:

Davis: "Mən ümid edirəm ki, Azərbaycan və Azərbaycan hökuməti əllərindən gələni edəcəklər ki, bu seçkilər əvvəlkilərdən daha yaxşı seçki kimi qiymətləndirilsin".

Azad Avropa/Azadlıq Radiosu: Birdən bu baş verməsə?

Davis: Əgər bu baş verməsə mən çox məyus olaram".

Azad Avropa/Azadlıq Radiosu: Elə isə məyus olanda siz nə edəcəksiniz?

Davis: Bu çox yaxşı sualdır. Mən məyus olanda nə edərdim...təəssüf ki, mən çox tez-tez məyus oluram. Belə olduqda mən hakimiyyət adamları ilə söhbət edirəm. Onları seçkilərdən dərhal sonra vəziyyəti yaxşılaşdırmaq üçün daha çox çalışmağa çağırıram.[83]

Davis Azərbaycandakı situasiya ilə yaxından tanış idi. Bəzən o hakimiyyətin qılığına girərdi. O 2008-ci ilin sonlarında jurnalistlərə demişdi ki "Mən hazırkı prezident İlham Əliyevi çox yaxşı tanıyıram. O mənim çox xoşumagəlir. Mən düşünürəm ki, o Azərbaycanı modeürnləşdirmək üçün çox çalışır".[84] Başqa yerlərdə Davis söz azadlığı üzərinə qoyulmuş məhdudiyyətlər barədə açıq və tənqidi danışırdı. Onun etməyə hazır olmadığı yeganə şey

80 *CPJ*, "Təqib edilən reportyor onu qətlə yetirmə cəhdlərindən qaça bildi", 9 May 2008.

81 *CPJ*, "Azərbaycan Xususi Hesabat: Elmarın Qatilləri üçün axtarış", 16 Sentyabr 2008.

82 *RFE/RL*, "Avropa Şurasının Rəhbəri, Azərbaycanda Seçkilərin Yaxşılaşdırılmasını Gözləyir," 15 İyul 2008.

83 *RFE/RL*, "Avropa Şurasının Rəhbəri, Azərbaycanda Seçkilərin Yaxşılaşdırılmasını Gözləyir," 15 İyul 2008.

84 *Azeri Report*, "Terri Devis: Öz rəqiblərinizlə necə rəftar etdiyiniz vacibdir", 23 Noyabr 2008.

2001-ci ildən Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri getdikcə daha kobud şəkildə pozan Azərbaycanı hər hansı sanksiyalarla qorxutmaq idi. (3-cü cədvələ bax).

Əslində, Şuranın Azərbaycana münasibətində tədrici və nəzərəçarpacaq transformasiya gedirdi. Estoniyalı həmməruzəçi Andres Herkel hələ də fəal idi və hələ də əvvəlki qədər tənqidi ruhdaydı. Lakin onun AŞPA-ya verdiyi brifinqlərin arasına qəribə bir ümidsizxlik soxulmaqda idi. O 2007-ci ilin Aprelində deputat yoldaşlarına belə demişdi:

> "Məm cənab Platvoyetin qoyduğu bəlkə də, ən çətin sualdan başlamaq istərdim: 2006-ci ildən bu yana nələr baş vermişdir? Mənim səmimi cavabım belə olacaq: o qədər də çox şey baş verməyib. Bizim gördüyümüz kiçik addımlar həmişə bu ölkədən aldığımız pis xəbərlərlə kölgələnmişdir". [85]

Andres Herkel də AŞPA-da gedən debatlarda getdikcə daha çox çətinliklərlə üzləşirdi. 2008-ci ilin iyununda assambleya Azərbaycandakı demokratik təsisatların fəaliyyəti barədə həmməruzəçilərinj məriuzəsini dinləyirdi. Britaniyalı Liberal Demokrat Michael Hancock xüsusən də Bakının Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri və demokratik seçkilərə dair standartları yerinə yetirmədiyi barədə hesabatdakı faktlara hücum etdi. Hancock özünün bu ölkəyə çoxsaylı səfərlərindən birində gördüklərini danışmaqla davam etdi:

> "Mən bu yaxınlarda Azərbaycanda olmuşasm və mən orada baş verən dəyiyşikliklərdən və ölkənin sərvətinin necə paylaşıldığından heyran olmuşam. Burada bu iş belə sərvətə malik başqa ölkələrdən daha çox görülmüşdür."[86]

*Cədvəl 3: Azərbaycanın yerinə yetirilməmiş öhdəliklər*[87]

| | |
|---|---|
| İfadə azadlığının təmin edilməsi | Tənqidi jurnalistlər təhdid və təqib edilmişlər |
| Media Qanununa dəyişiklik | Medianı daha çox məhdudlaşdıran dəyişikliklər edilmişdir |
| Müstəqil ictimai televizyanın yaradılması | 2005-ci ildə yaradılmış İvtimai TV dövlət televiziyası qədər hökumətpərəstdir |
| Siyasi məhbusların azad edilməsi | Siyasi səbəblərlə həbslər davam etdirilmişdir |
| İşgəncələrlə əlaqədar hüquq-mühafizə orqanları nümayəndələrinin mühakimə edilməsi | İşgəncələrlə əlaqədar olaraq heç bir nümayəndə mühakimə edilməmişdir |
| Yerli hökumətlərin gücləndirilməsi | Yerli hökumətlərin gücü məhdudlaşdırılıb, Bakı meri seçilməyib |
| Qanunvericiliyin gücləndirilməsi | Parlament çox zəifdir. İcra hakimiyyətinin hərəkətlərini nəzarət etmir |
| Vəkillər Kollgiyası haqqında qanunların dəyişdirilməsi | Müxalifət üzvlərini müdafiə edən vəkillərin Vəkillər Kollegiyasından çıxardılan sayı artır |
| Ombudsman idarəsinin yaradılması | Prezident administrasiyası daxil olmaqla əsas siyasi ququrmlar Ombdusmanın nəzarətinə altında deyillər |
| Assosiasiyalarının qeydiyyatı haqqında qanunların dəyişdirilməsi | Tənqidi QHT-lərin lisenziyaları ləğv edilib |
| Alternativ hərbi xidmət haqqında qanun qəbul edilməsi | Alternativ hərbi xidmət tətbiq etməyə istəyin olmaması aydındır |
| Seçkilər və Mərkəzi Seçki Komissiyası haqqında qanunların dəyişdirilməsi | Seçki qanununda tənqid olunan heç bir hissə dəyişdirilməyib |

[85] AŞPA-da müzakirələr, 16 Aprel 2007.
[86] AŞPA-da müzakirələr, 24 İyun 2008.
[87] AŞPA, 222 nömrəli Rəy (2000).

Hancock sözünü belə yekunlaşdırmışdır:

> "Biz Azərbaycanı bu cür möhkəm sıxışdırmaqda ehtiyatlı olmalıyıq. Azərbaycanı bu Təşkilata biz buraxmışıq. ...Mən elə indicə Monitorinq Komitəsinin iclasında olmuşam. Və müşahidə etmişəm ki, biz qanunlarda baş verən ilkin dəyişiklikləri belə qiymətləndirmirik..."

Kristiina Ojuland, Estoniyanın keçmiş xarici işlər naziri (2002-2005) və Bakının daha bir tez-tez qonaqladığı şəxs də Herkelin hesabatını tənqid etmişdir:

> "Bu hesabat son dərəcə sərt dillə yazılmışdır. Mən 1995-dən Assambleyanın üzvüyəm, indiyədək belə sərt dil eşitməmişəm. Bu lap Corc Orvelin yazdığına bənzəyirI bəziləri bərabərdirlər, bəziləri isə daha çox bərabərdirlər. Mən soruşmaq istərdim ki, biz bunu niyə edirik. Nə üçün biz bütün ölkələrlə bərabar rəftar edə bilmirik?"[88]

Bundan sonra isə o, Azərbaycanda insane haqlarının vəziyyətinin pisləşməsini inkar edən hökumətyönlü insan haqları təşkilatının hesabatından sitat gətirmişdir.

Hancock Assambleyada çıxışlar etməklə kifayətlənmirdi. O həmçinin Şuranın Azərbaycanda keçirilən seçkilərin monitorinqinə münasibətini dəyişməyə də cəhdlər göstərməkdə aparıcı rol oynamışdır. 2008-ci ildə Azərbaycanda keçiriləcək prezident seçkilərinin ərəfəsində Hancock yenidən Andres Herkelin əleyhinə çıxmışdır. O Herkeli qərəzli olmaqda və Azərfbaycandakı seçkiləri "rüsvay etmək üçün bəhanə axtarmaqda" ittiham etmişdir. O daha sonra nəzərini Azərbaycanda seçkiləri uzun müddət monitorinq etmiş DTİHB-ə çevirmişdir? "DTİHB hətta bir ay bundan əvvəl Azərbaycana gedib çıxmamış orada seçkilərin problemlərlə dolu olacağını deyirdi. O bunları haradan bilirdi? Bəlkə o telepatiya qabiliyyətinə malikdir?"[89] Hancock AŞPA həmməruzəçilərinin və Venesiya Komissiyasının seçki komissiyalarının tərkibi barədə narahatlılarını dəfələrlə qulaqardına vurması kimi fakta məhəl qoymamışdır. Əvəzində o, DTİHB-in qərəzli bir şəkildə fəaliyyət göstərib-göstərmədiyini yaxşıca yoxlamağı tövsiyə etmişdir.

2008-ci ilin Oktyabrında prezident seçkilərini müşahidə edən AŞPA heyətinə rəhbərlik etmişdir. Nümayəndə heyətinə çox sayda Azərbaycanı dəstəkləyən deputatlar daxil idilər. Liberal siyasi qrup olan Avropa Liberalları və Demokratları Alyansı (ALDA), Michael Hancocku və Kristina Ojulandı, həmçinin sonralar AŞPA-nın Azərbaycana münasibətini dəyişməkdə aparıcı rol oynamış Belçika senatoru Paul Wille-i göndərmişdir. Bundan başqa Avropa Demokrat Qrupu (ADQ) Azərbaycana üzgörəlik etməklə tanınmış deputatları göndərmişdir. Onlardan biri Türkiyədən olan Mevlit Çavuşoğlu 2005-ci ildə AŞPA-nı Azərbaycanda siyasi məhbuslar barədə keçirilən debatları dayandırmağa çağırmışdır.[90] Burada yenidən Bavariya xristian-demokratı Eduard Litner var idi. Heyyətə həmçinin inadla Azərbaycanı dəstəkləyən Rusiya heyətinin üzvlərindən İqor Çernışenko, Yuri Zelenski daxil edilmişdii. Birləşmiş Krallıq mühafizəkarlarından Robert Walter demişdi ki, Azərbaycanda bundan əvvəlki seçkilər "demokratik olub". 2010-da, Walter "Azərbaycanın Mühafizəkar Dostları" üzvü oldu. Bu qrup Britaniya Parlamentindəki mühafizəkarları birləşdirən bir qrupdur. O, həm də, Böyük Britaniya və Azərbaycan arasında ticarət əlaqələrinin inkişafında çox fəal idi.[91]

Oktyabrın 15-də, Bakıda prezident seçkisi günündə hələ seçki məntəqələri bağlanmazdan çox əvvəl, günorta saatlarında Hancock seçkini və seçki komissiyalarını tərifləmişdi:

---

88 AŞPA-da müzakirələr, 24 İyun 2008, səhər saat 10-da.
89 AŞPA-da müzakirələr, 29 Sentyabr 2008, gündüz saat 3-də.
90 AŞPA-da müzakirələr, 22 İyun 2005, gündüz saat 3.30-da.
91 Yaxın Şərq Assosiasiyası, "YSA-nın Azərbaycana ticarət missiyası", tarix yoxdur.

> "Mən seçki komissiyasının fəaliyyətini müsbət qiymətləndirirəm. Müşahidə olunmuşdur ki, onlar seşkini mükəmməl keçirmək təlimatına tam əmməl etmişlər. Seçicilər də yaxşı maarifləndirilmişlər."[92]

Növbəti gün DTİHB müşahidəçi missiyasının rəhbəri Boeis Frlek və AŞPA nümayəndə heyətinin rəhbəri Andres Herkel vahid hesabatda ümumi ab-hava barədə tənqidi qeydlərin əks etdirilməsi üçün razılığa gəldilər. Herkel AŞPA üzrə həmkarları ilə məsləhətləşmək üçün gələndə, Hancockun rəhbərlik etdiyi üsyanla qarşılaşdı. Bu barədə məlumat Herkelin 2010-cu ildə nəşr olunmuş "Az\rbaycan məktubları" kitabında verilmişdir.[93] Eduard Lintner və Paul ilə birlikdə Hancock AŞPA-nın ayrıca, daha müsbət hesabatının hazırlanmasına çalışırdı. Dərin ixtilaflar üzündən birgə mətbuat konfransı üç saatadək ləngidi. Üsyançılar "əhəmiyyətli inkişaf" formulunu itələyə bilməsələr də, hesabata "nəzərəçarpacaq tərəqqi formulunu soxuşdura bildilər. DTİHB monitorinq qrupları arasında açıq ixtilafdan qaçmaq üçün bunu qəbul etməyə məcbur oldu. Buna baxmayaraq Herkel media azadlığına dair tənqidi qeydlərin hesabat daxil edilməsində israr etdi və bunu səsə qoydu.[94] Üstəlik o xəbərdarlıq etdi, DTİHB-lə birgə bəyanata nail ola bilməsə istefa verəcək. Bu təhdid deyəsən, rol oynadı, lakin bəyanat çox az səs çoxluğu ilə, 9-7 nisbətində birgə bəyanat qəbul edildi. [95]

Lakin Herkel və DTİHB arasında əldə edilmiş razılaşma Hancock və Wille üçün kafi deyildi. Herkel birgə bəyanatdan parçaları oxumağa başladıqda hər ikisi – Hancock və Wille çoxsaylı Azərbaycan jurnaslistləri qarşısında uca səslə etirazlarını bildirdilər.

Bakıdakı rejimin AŞPA-dakı tərəfdarları tezliklə öz dəstəklərini bildirmək üçün başqa bir imkan tapdılar. Prezidentliyin ikinci müddətini qazanan İlham Əliyev tezliklə konstitusiyada ona qeyri-müəyyən müddətdə president olmaq üçün maneə törədən maddələri ləğv edən dəyişikliklərin qəbulu üçün referendum keçirilməsini təklif etdi. Avropa Şurasının konstitusiya hüququ üzrə məşvərət orqanı, Venesiya Komissiyası, bunu, Azərbaycanın "demokratiyaya doğru möhkəmləndirilmiş yolundan ciddi geriləmə"[96] və "Azərabycandaki şərait kontekstində, demokratik praktika baxımından, mənfi dəyişiklik"[97] kimi qiymətləndirdi. AŞPA-nın prezidenti Luis Maria de Puig ondan müsahibə alanlardan birinə bildirdi ki, "bu referendum Azərbaycanda demokratiyanın gələcəyi üçün narahatlıq yaradır".[98]

Lakin bu Bakıda 2009-cu ilin martında keçirilən referendumu müşahidə etmək üçün gedən dörd nəfərdən ibarət AŞPA nümayəndə heyətinin qənaəti deyildi. AŞPA nümayəndələri mətbuat konfransda bəyan etdilər ki, "referendum Azərbaycan xalqının daha çox stabillik və bundan sonbra da demokratikləşmə elementlərini dəstəklədiyini göstərdi". Lakin onlar qeyd etdilər ki, "hakimiyyət balansını daha yaxşı nizamlamçaq üçün daha geniş islahatlara ehtiyac olacaqdır".[99] Bu dəstəyə AŞPA-nı həmin ilin sonunda tərk edərək Almaniya-Azərbaycan

---

92 *Today.az*, "Azərbaycanda Prezident Seçkiləri Başa Çatdı," 15 Oktyabr 2008.

93 Andres Herkel, *Aserbaidžaani kirjad*, (Azərbaycan məktubları), Tallinn, 2010 (Eston dilində).

94 Andres Herkel bu hekayəni *Aserbaidžaani kirjad* kitabında qeyd etdi, Tallinn, 2010, səh. 146-149

95 Bu debatlarda Herkeli möhkəm dəstəkləyənlər sırasında Litvadan Egidijus Vareikis Polşadan Piotr Wach, Portuqaliyadan Maximiano Martins və Estoniyadan Indrek Saar idi.

96 Avropa Komissiyasının Qanun zəminində Demokratiya (Venesiya Komissiyası) qrupu, "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər layihəsi barədə" (CDL-AD(2009)010), 16 Mart 2009, Bölmə 16.

97 Avropa Komissiyasının Qanun zəminində Demokratiya (Venesiya Komissiyası) qrupu, "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər layihəsi barədə" (CDL-AD(2009)010), 16 Mart 2009, Bölmə 43.

98 Mina Muradova, "Azərbaycan: Prezidentlik Müddətinin Limitinin Ləğv edən Referendum Bakının tənqidini Alovlandırır"EurasiaNet, 28 Yanvar 2009-cu il.

99 Qoşma, "Azərbaycan Respublikasının Konstitusiya Referendumunda İştirak", 18 Mart 2009-cu il.

Münasibətlərinin İnkişafı” qrupuna rəhbərlik edəcək Eduard Lintner, daxil idi.[100] Bu qrupda həmçinin 2008-ci il seçkiləri zamanı Andres Herkelə qarşı üsyana rəhbərlik etmiş Belçikalı senator Paul Wille də var idi. Almaniyanın solşu partiyasının üzvü Hakkı Keskin də qrupa daxil edilmişdi. O bundan əvvəl də Almaniyanın Sol Partiyasında ziddiyyət yaratmışdı.[101] 2012-ci ildə Keskin AŞPA-nın siyasi məhbuslar üzrə həmməruzəçisi, Bundestaq üzvü Christoph Strasseri Azərbaycana qarşı “qərəzdə” ittiham etmişdir.[102] Missiyanın dördüncü üzvü Azərbaycanda uzunmüddətli maraqları olan Valensiyalı ispan biznesmen mühafizəkar Pedro Aqromunt idi.

Paul Wille 27 Aprel 2009-cu ildə AŞPA qarşısında çıxış edərkən demişdir ki:

> “bu referendum əlbəttə çox yaxşı təşkil olunmuşdu; səsvermə məntəqələrindəki üzvlər hazır idilər və davamiyyət çox yüksək olmuşdur. Bizim nümayəndə heyəti mətbuat konfransında bəyan etdi ki, referendum bu regionun əhalisinin irəliyə doğru addımlamaq arzusunu nümayiş etdirmişdir, lakin biz həm də dedik ki, daha demokratikləşməi elementlər mövcud olmalıdır…”[103]

Hancock qeyd eydi ki, səsvermə:

> “son dərəcə uğurlu olmuşdur və müəyyən mənada Azərbaycan xalqının öz hakimiyyətlərinin idarəetmə üslubunu və prezidentini nə üçün xoşladığını izah edir. Mən ümid edirəm ki, indi adamlar kimi isə barmaqla göstərməkdən daha çox irəiyə addımlamağın vacibliyini qəbul edəcəklər.”[104]

AŞPA-nın susdurulması istiqamətində növbəti addım 2009-cu ilin payızında atıldı. Bu addın elə düşünülmüşdü ki, ən azı həmməruzəçilər tərəfindən Azərbaycanın tənqidini dayandırsın. Həmməruzəçi Andreas Qros tərəfindən dəstəklənən Norveçli leyborist Lise Christoffersenin Azərbaycan üzrə yeni həmməruzəçi olacağı barədə xəbər Azərbaycan nümayəndə heyətini riqqətə gətirdi Azərbaycan nümayəndə heyətindən Gültəkin Hacıbəyli bir qəzetə bildirdi ki, “Azərbaycan tərəfi həmməruzəçi postunun keçmiş həmməruzəçi Andreas Qros kimi fərdlərə verilməsini qətiyyən istəmir”.[105]

Christoffersen öz social-demokrat fraksiyasının ciddi dəstəyinə malik idi və Azərbaycan üzrə həmməruzəçi postuna fraksiyanın namizədiydi. Bununla belə, 2009-cu ilin Oktyabrında monitorinq komitəsinin iclasında Michael Hancock onun namizədliyini şübhə altına aldı və bildirdi ki, Norveç Sentyabr ayında seçki keçirib və Christoffersenin yenidən AŞPA-ya seçilib-seçilməyəcəyi bəlli deyil. Beləliklə Hancock bu səsvermənin təxirə salınmasına nail oldu. Bu, Azərbaycan nümayəndə heyətinə yeni namizədlərin vderilməsi üçün imkan yaratdı. 2009-cu ilin 18 Noyabrında Monitorinq Komitəsi Parisdə toplaşabnda Hancock, Lintner və

---

[100] 2009-cu ilin Noyabrında Lintner (CSU) vəzifəsini tərk edərkən Almaniya mətbuatına verdiyi mətbuat konfransında Azərbaycan üçün muzdlu lobbiçi olmasını izah etdi. “O monitoring komitəsində işləyərkən Xəzər dənizinin sahilində, İran, Ermənistan, Gürcüstan və Rusiya ilə əhatələnmiş səkkiz milyonluq əhalisi olan Azərbaycanla yaxından tanış olmuşdu. Lintner öz ofisini Almaniya paytaxtında qurarkən belə demişdi: “ indi mən Berlində bu ölkə üçün işləyirəm. Mənim vəzfəm Azərbaycanla parlament, mühüm fiqurlar və digər təsisatlar arasında əlaqə yaratmaq və bu əlaqələri inkişaf etdirməkdir”. http://www.scribd.com/doc/46628319/Berlin-Aserbeidschan-die-Welt-ist-sein-Buro-Ruhestand-Aserbeidschan-Lintner-Bundestagsabgeordneter.

[101] *Der Tagesspiegel,* “Kleines Bergkarabach, großer Ärger”, 24 June 2007.

[102] Hakki Keskin, “Schreiben an Herrn Strasser”, 16 January 2012, http://www.tavd.de/index.php?option=com_content&view=article&id=27%3Aan-die-mitgliedern-des-menschenrechtsausschusses-des-bundestags&lang=de.

[103] AŞPA-da müzakirələr, 27 Aprel 2009, saat səhər saat 11.30-da.

[104] AŞPA-da müzakirələr, 27 Aprel 2009, saat səhər saat 11.30-da.

[105] *Trend.az*, “Azərbaycan üzrə yeni həmməruzəçi ilin sonuna gədər təyin olunacaq”, 25 Avqust 2009.

Agramunt "özlərinin" socialdemokrat namizədlərini irəli sürdülər. Bu, Maltalı leyborist Cosef Debono Qrek idi. Debono Qrek Monitorinq Komitəsinin iki iclasında ümumiyyətlə iştirak etməmişdi. Buna baxmayaraq o Komitədəki səsvermədə Christoffersenin 12 səsinə qarşı 18 səs qazanmışdı.[106]

Azərbaycan tərəfi hadisələrin inkişafından çox məmnun idi. 2010-cu il İyunun 24-də Debono Qrek özünün Azərbaycan üzrə həmməruzəçi kimi inaqurasiya çıxışında Azərbaycanın Sovet İttifaqı ilə müstəqillik savaşını Maltanın Britaniya ilə savaşına bənzətdi:

> "Mən müstəmləkə olmuş ölkədən gəlmişəm və iztirablar çəkmişəm. Biz Britaniyadan müstəqilliyimiz almaq istəyəndə vuruşurduq və məni həbsxanaya atmışdılar. Mənim ölkəm müstəqillik uğrunda vuruşanda Avropa Şurası Britaniyanı yox, bizi ittiham edirdi".

O izah etdi ki, "biz Azərbaycanın son on ildə Avropa Şurasının üzvü olduğunu yadda saxlamalıyıq. Bu ölkə Dəmir Pərdə arxasından gəldiyi üçün biz gözləyə bilmərik ki, o bir neçə ilin ərzində Avropa Şurasının tələblərinə cavab verə bilsin, ələlxüsus da bizim tanıdığımız demokratiya sahəsində". Azərbaycan nümayəndə heyətinin başçısı Səməd Seyidov üçün təşəkkür etməkdən başqa bir vəzifə qalmırdı:

> "Mən həmçinin həmməruzəçilər və nümayəndə heyəti arasında konstruktiv ab-hava yaratdığı üçün cənab Debono Qrekə öz təşəkkürümü bildirirəm. Biz indi bir çox çətin məsələləri konstruktiv şəraitdə müzakirə edə bilərik".[107]

Michael Hancock bu fikirlə razılaşdı:

> "Yeni həmməruzəşi kimi cənab Debono Qrek şəraitə yeni aydınlaşdırıcı baxış gətirdi və Azərbaycana qısa səfəri barədə maraqlı məqamları qeyd etdi".[108]

Bir il sonra, bu zamanadək Monitorinq Komitəsinin rəhbər müavini təyin olunan Lise Christoffersen, 2009-cu ilin sonunda baş verənlər barədə öz fikirlərini paylaşdı:

> "ümumiyyətlə gizli, lakin zaman-zaman görünən və bəzi gözlənilməyən şaxələri olan bir şəbəkə, irəli sürdüyüm namizədliyimi ləğv etmək üçün hərəkətə keçdi...bu Azərbaycanın Norveçli məruzəçini istməməsi ilə əlaqədər idi və bunun üçün səbəb çox aydın idi. Hər iki ölkə arasında rəsmi görüşlər olanda, Norveç həmişə Azərbaycandakı insan haqları pozuntuları məsələsini gündəmə gətirdi."[109]

Debono Grech vəzifəsinə təyin olunandan bir il sonra, Bakıdakı hökümətə uzun zamandır ki, əzab verən, Andres Herkel həmməruzəçi vəzifəsindən istefaya getdi. 24 iyun 2010-cu ildə, Azərbaycan barədə yazdığı son monitorinq hesabatını təqdim edəndə, o assambleyaya bu sözləri dedi:

> "Bu gün mən öz emosiyalarımla başlamaq istəyirəm. Mən Azərbaycandakı insanlar üçün çox kədərlənirəm. Mən parlamentdə, nazirliklərdə və prezident aparatında çöx görüşlər keçirdim və həmçinin ölkənin regionlarında müxalifətlə sadə çayxanalarda görüşdum...Bu illər mənə özünəməxsus təcrübə bəxş edib və mən Azərbaycanı sevirəm. Son aylar ərzində mənə bir sual dəfələrlə verilibdir: bu altı il gördüyüm işlərin nəticəsindən razıyammı? Dürüst cavabım belədirI xeyir."[110]

[106] *APA*, "AŞPA Monitorinq Komitəsi Azərbaycan üzrə yeni həmməruzəçi təyin etdi", 18 Noyabr 2009.
[107] AŞPA-da müzakirələr, 24 İyun 2010.
[108] AŞPA-da müzakirələr, 24 İyun 2010.
[109] AŞPA-da müzakirələr, 24 İyun 2011.
[110] AŞPA-da müzakirələr, 24 İyun 2010.

Bu dəfə, varislərin seçimi Xalqlar Partiyası qrupunda qaldı. Yenə də, bir Skandinaviyalı deputat, Marietta de Pourbaix-Lundin buna maraq göstərdi. Onun marağının xəbəri yayılan kimi, İspaniyalı Pedro Agramunt həmkarı Pourbaix-Lundinə yaxınlaşdı. Görüşlərində, Azərbaycan məruzəçisi vəzifəsi ilə on ilə yaxın maraqlanan Pedro Agramunt, Pourbaix-Lundini namizədliyindən imtina etməyə və başqa bir vəzifəni gözləməyə inandırdı. Pourbaix-Lundin bu qərarına sonra peşman olacaqdı. 2010-cu ilin noyabr ayındaki seçkilər keçiriləndən öncə, Agramunt ona, "bu çox yaxşı ölkədir, seçkilər yaxşı olacaq"- dedi. Göründüyü kimi, seçkilərin hələ keçirilmədiyi onun üçün o qədər də əhəmiyyətli deyildi. Nə də ki, 2003 və 2005-ci illərdə Azərbaycanda baş vermiş kütləvi seçki saxtakarlıqlarına öz gözləri ilə şahid olması.

Hər iki məruzəçi sələflərinin addımları ilə davam etməyəcəklərini dərhal aydın etdilər. Agramunt, 2010-cu ilin noyabr ayında keçirilən Monitorinq Komitəsi toplantısını arxayın etdi ki, "son səkkiz ildə Azərbaycan mükəmməlcəsinə inkişaf edib". 4 oktyabr 2011-ci ildə bir müsahibədə, Debono Grech Azərbaycanın "gənc" demokratiya kimi "bu qısa yolda əla işlər gördü"-yünü dedi. O, məruzəçilərin vəzifəsinin, "ağil öyrətmək" yox, yardım etmək olduğunu vurğuladı:

> "Bəli, problemlərin əksəriyyəti həll edilibdir. Bəzi həll edilməmiş məsələlər var, amma qanunların əksəriyyəti qəbul edilibdir...İcazə verin mən vurğulayım ki, sizin ölkə inkişafında çox uğurludur. Hər bir ölkədə problemlər mövcuddur, amma ümumiyyətlə, vəziyyət ümidvericidir. Bizə Azərbaycana kömək edə bilərik, ona görə ki, bu çox gənc demokratiyadır, 20 il çox uzun müddət deyil. Amma bu qısa yolda siz əla işlər görmüsünüz."[111]

Bü hakimiyyətin ürəyinə yatan sözlər idi. 2010-cu ildə məruzəçilərin Bakıya səfərsonu keçirdikləri mətbuat konfransındakı mesajları da eyni hiss yaratdı. Öz sələflərindən fərqlənərək, onlar, vəziyyəti qiymətləndirməkdən imtina edib, bunların yekun hesabatında təqdim olunacağını bəyan etdilər. Agramunt başa saldı ki, "Bizdə yalnız ilkin təəssüratlar var. Biz onları nəzərdən keçirib analiz edəcəyik və sonra nəticələrimizi hesabatda izhar edəcəyik."[112] Onların birinci hesbatının nəşri xeyli qecikdi. Əvvəl, məruzəçilər tam müşahidə hesabatını 2011-cu ilin axırına gədər hazır olacağını bəyan etmişdilər.[113] Amma onların tamamlama tarixi iki dəfə uzadıldı, birinci dəfə 2012-ci ilin iyun ayına,[114] və sonra isə 2012-ci ilin axırına. Nəticədə, hesabatın nəticələri, 2012-ci ilin May ayında Bakıda keçirilən Avroviziya Mahnı Müsabiqəsindən əvvəl, Azərbaycan dünyanın diqqətində olan zamanda, müzakirə oluna bilmədi.

2010-cu ilin sonuna gədər, İlham Əliyev öz hakimiyyətini möhkəmləndirmişdi. Bu zaman Azərbaycan siyasəti barədə İngilis dilində nəşr olunmuş yeganə kitabda, o, "pluralizmin və liberal demokratiyanın elementlərindən qarışıq" hibrid rejimin, "yaxşı danışıq qabiliyyətinə malik olan, və Qərbin siyasi və iqtisadı prinsiplərini aydınlıqla anlayan bir bilikli lideri" kimi təqdim edilmişdir.[115] O heç bir çətinliksiz yenidən seçilmişdir. AŞPA nümayəndə heyətinin xeyir-duası ilə o, özünü ömürlük prezident təyin etmişdir. İndi o, Avropa Şurasında ona dostluqla davranan iki həmməruzəçinin yumşaqlığına da arxayın ola bilərdi. Artıq Azərbaycanın AŞPA-dakı kürü diplomatiyasının ən parlaq qələbəsini nümayiş etdirmək üçün

111 *News.az*, "Avropalı məruzəçi Bakıya 'ağıl verməyə' yox, yardım etməyə gəlib", 4 Oktyabr 2011.

112 *Turan/AzeriReport*, "AŞPA həmməruzəçiləri Bakıya səfərləri barədə Mətbuat Konfransı təşkil etdilər, harada ki, heç nə barədə danışdılar", 4 Fevral 2011.

113 AŞPA, "Azərbaycanın vəzifələrinin və öhdəliklərinin yerinə yetirilməsi. Həmməruzəçilərin Bakıya faktaraşdırıcı səfərləri barədə məlumat notası (1-3 Fevral 2011)", Bölmə 54, 12 Aprel 2011.

114 *Trend.az*, "AŞPA həmməruzəçilərinin Bakıya səfər proqramı elan olundu", 25 Yanvar 2012.

115 Svante E. Kornell, *Azərbaycan Müstəqillikdən Sonra,* 2011.

meydan hazır idi: bu da indiyədək Avropa Şurasının üzv dövlətlərində müşahidə edilmiş ən saxta seçkiləri 7 Noyabr 2010-cu ildə keçirməkdən ibarət idi.

### *B. Seçkini necə oğurlamaq olar (2010)*

> "Yaxşı odur ki, müşahidəçilər seçkilərin səviyyəsini artıra bilsinər. Pis odur ki, çox zaman onlar bunu etmirlər. İyrənc isə odur ki, onlar bəzən qərəzli olurlar və hökümətlərin saxtakarlıqla legitimləşdirilməsinə yardım edirlər."
>
> Judith G. Kelley, Demokratiya Müşahidəsi, səh. 155

1997-ci ildəki məqaləsində, Thomas Carothers qeyd edirdi ki, beynəlxalq seçki müşahidəsi "qlobal" olsa da, hələ "müasir beynəlxalq əlaqələrin nisbətən araşdırılmamış bir sahəsidir".[116] 15 il sonra, alimlər və tətqiqatçılar bu araşdırılmamış sahəni işiqlandırmağa başladılar. Onlar müşahidəçilərin ayrıseçkiliyini analiz etdilər.[117] Onlar bəzi psevdo-demokratların "getdikcə artan strateji manipulyasiya oyununun" bir hissəsi kimi beynəlxalq seçki müşahidəçilərinə dəvətlərini araşdırdılar.[118] Onlar, "ən ciddi beynəlxalq müçahidəçi təşkilatların təcrübələrindən öyrəndikləri ən əhəmiyyətili inkişafı, seçkilərdənı bir neçə ay əvvəlki müddətə gücləndirilmiş analiz ilə diqqət cəlb etmələridir".[119] Bütün ekspertlər razılaşdılar ki, "seçki dövrü yanaşma" zamanı vacibdir. Bu ideya seçki müşahidəçilərinin seçkilərin hər bir aspektinə, toplaşmaq azadlıqları və namizəd qeydiyyatları ilə bağlı qanunlardan tutmuş, seçkilərdən sonra şikayətlərə necə baxıldığını dərindən müzakirə etməsinin əhəmiyyətini vurğulayır. Təhqiqatçılar, seçki günü baş verənlərin yalnız aysberqin ucu olduğunu anladılar.[120] Nüfuzlu qiymətləndirmələr və tövsiyələr vermək üçün, müşahidəçilərin bu işlərə uzunmüddətli baxımdan yanaşmaları lazımdır. Bu, təməyüllü mövqeləri məhdudlaşdıra bilər, qeyri-professional qiymətləndirmələrin və seçki sonrası tələsik hazırlanmış bəyannamələrin qarşısını ala bilər.

Heç bir təşkilat bunu ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosundan (DTİHB) yaxşı bilmirdi. 1990-cı ildə 150 nəfərlik heyəti ilə yaradılmış və Varşavada yerləşən DTİHB ilk seçki müşahidə missiyası 1993-cü ildə başladı.[121] 1994-cü ildən, təşkilata Seçki Müşahidə Kitabçası hazırlamaq səlahiyyəti verilmişdir, və o zamandan bu kitabça 230-dan çox seçkidən alınan təcrübələri əks etdirərək bir neçə dəfə yenilənib. [122] DTİHB seçki müşahidə missiyaları ATƏT-in qabaqcıl fəaliyyətinə çevrilib. Onlan həmçinin hücuma məruz qalıblar. Gürcüstan (2003) və Ukraynadaki (2004) rəngli inqilablarından sonra, Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrinin dövlət başçıları, DTİHB-nin seçki müşahidə fəaliyyətinin siyasiləşdirilimәsi barədə şikayət ediblər. Rusiya və onun müttəfiqləri tərəfindən davamlı tənqiddən sonra DTİHB məcbur oldu ki, daha müfəssəl və ciddi metodologiya yaratsın.

---

116 Tomas Karothers, "Müşahudıçilərin Müşahidəsi", *Demokratiya Jurnalı*, Cild 8/3, İyul 1997

117 Judit G. Kelli, *Demokratiyanın Müşahidəsi – Nə Zaman Beynəlxalq Seçki Müşahidəsi Uğurlu Olur, və Niyə Çox Vaxt Uğursuz Olur*, Prinston Universitet Mətbəəsi, 2012, səh. 15.

118 Susan D. Hayd, *Saxta Demokratların dilemması – Niyə Seçki Müşahidəçiliyi Beynəlxalq Norma Oldu*, Kornell Universitet Mətbəəsi, 2011.

119 Andreas Şedler. *Seçki Avtoritarizmi: Azad Olmayan Rəqabətin Dinamikası*, Lynne Rienner Nəşriyyatı, 2006, səh. 45.

120 ATƏT/ DTİHB, "Seçki Müşahidəsi. On il seçki müşahidəsi: insnalar və təcrübələr," 2005, səh. 5.

121 ATƏT-in İllik Hesabatı 2010, səh. 74. ATƏT dövlətlərinin hamısı öz milli seçkilərini beynəlxalq müşahidəyə açdılar.

122 ATƏT/ DTİHB, *Seçki Müşahidə Kitabças: 6-cı Nəşr*, İyun 2000.

2010-cu ilin sentyabr ayının sonunda, DTİHB-nin 16 ekspert və 22 uzunmüddətli müşahidəçidən ibarət olan uzunmüddətli seçki müşahidə komandası Bakıya gəldi.[123] Qrupun rəhbəri, Böyük Britaniyalı Audrey Glover çox təcrübəli seçki müşahidəçisi idi. 1994-1997-ci illərdə DTİHB direktoru olduğu zaman, Glover təşkilata müstəqilliyinə görə nüfüz qazanmaqda yardımçı oldu. O, DTİHB rəhbərliyinin dəstəyinə və inamına malik idi. Alban hökuməti Yunan Xarici İşlər Naziri və ATƏT-in o zaman sədri kimi fəaliyyət göstərən, Dora Bakoyannisi öz tərəfinə cəlb edərək, onun Gloveri 2009-cu ilin seçki müşahidə komandasının rəhbəri kimi əvəz etməsinə cəhd göstərsə də, DTİHB-nın direktoru bu tələbdən tamamilə imtina etdi.

Gloverin DTİHB komandası seçki mühiti barədə əsas faktları müəyyən etməyə 2010-cu ilin sonunda başlarkən, tezliklə vəziyyətin necə pis olduğunu aşkar etdi.

Çox uzun müddət beynəlxalq eskpertlər tərəfindən tənqid olan seçki komissiyalar tərkibi dəyişmədən hakimiyyətyönlü qüvvələrin tam üstünlüyə malik olduğu qurumlar kimi qaldı.[124] Bütün yerli və regional seçki komissiyalarının rəhbərləri hakim partiya tərəfindən təyin olunmuşdur. Mərkəzi Seçki Komissiyasının rəhbəri və Bakı Dövlət Universitetinin keçmiş fizika professoru Məzahir Pənəhov hələ də vəzifəsində idi. 2000-ci ildən indiyədək bir sıra saxtalaşdırılmış seçkilərə nəzarət etdikdən sonra, göründüyü kimi o, prezident Əliyevin inamini qazanmışdı.[125]

Nə dəyişiklik var idisə, ümumiyyətlə geyirə doğru idi. 2010-cu ilin iyul ayında Seçki Məcəlləsinə qəbul olunan dəyişikliklər, seçkiqabağı kampaniya müddətini sadəcə 23 günədək qisaltdı. Ümumi mühit hədə-qorxu yaradılması ilə keçdi. Özəl şirkətlər, müxalifətə dəstək göstərdikləri hallarda onlara qarşı hərəkətlərdən qorxurdular. Media şəraiti isə, 2005-ci ildə məhdudlaşdırılmış sayılırdısa, indi daha da piz vəziyyətdə idi. Tənqidi jurnalistlər davamlı olaraq təyziqlərlə və həbslə hədələnirdi. DTİHB seçkilərin mediada işıqlandırılmasını rəqəmlərlə təqdim etməyə calışdı:

> "Rəsmi seçkiqabağı kampaniya dövründə, AzTV (dövlət televiziyası) prezidəntə müstəsna olaraq dörd saat 24 dəqiqə müsbət və neytral vaxt ayırdı. Hökümətə bir saat 26 dəqiqədən çox, və Yeni Azərbaycan Partiyasına 24 dəqiqə ayırdı. Bunun əksinə olaraq, əsas müxalifət blokuna birlikdə, yalnız dörd saniyə neytral vaxt ayrıldı."[126]

2005-ci ilin sonunda keçirilən seçki mitinqləri və nümayişlər, hakimiyyət tərəfindən icazə ilə keçirilən sonuncu mitinqlər idi. Hökümət artıq, rəsmən ayrılmış sahələrdən xaricdə təşkil olunan kampaniya fəaliyyətlərini qanunsuz sayırdı. Yerli hakimiyyət orqanlarının mitinqlər üçün ayırdıqları yerlər isə ümumiyyətlə münasib deyildi.

DTİHB-nin aşkar etdiyi ən əhəmiyyətli fakt isə, seçkilərin başlanmasınan əvvəl nəticələrin idarə olunması idi. 2005-ci ildə, müxalifətin Musavat, Azərbaycan Xalq Cəbhəsi və Demokratik Partiyası daxil olan Azadlıq Blokunun 116 namizədinin hamısı Mərkəzi Seçki Komissiyası tərəfindən qeydiyyatdan keçirilmişdi.[127] 2010-cu ildə, Musavat və Azərbaycan

---

[123] ATƏT/ DTİHB, "Azərbaycan Respublikasının 7 Noyabr 2010 Parlament Seçkiləri, Yekun Hesabat", 25 Yanvar 2011, səh. 4.

[124] Venesiya Komissiyası və ATƏT/DTİHB

[125] Belarusiyanın səfiri ilə görüşəndə, Pənahov vurğuladı ki, "Belarusiya və Azərbaycan seçkilər sahəsində çox sıx əməkdaşlıq edirlər" (http://www.data.minsk.by/belarusnews/082006/127.html).

[126] IEOM (BSMM) – Beynəlxalq Seçki Müşahidə Missiyası, "İlkin nəticələr bəyənatı", 8 Noyabr 2010, səh. 8, haşiyə 27.

[127] Seçki Sistemləri üzrə Benəlxalq Ekspertlər Mərkəzi, "Azərbaycan hakimiyyəti müxalifətlə rəqabətdən qorxur", 12 Oktyabr 2010.

Xalq Cəbhəsi blokunun 88 namizədindən 50-si qeydiyyatdan keçirilmədi. Bunun nəticəsində, hakim partiyanın siyasətçiləri 125 dairədən 110-nunda mübarizə aparırdı, ümumi, və ya hakimiyyətin təbirincə "radikal" müxalifətin isə yalnız 38 dairədə mübarizə aparmaq imkanı var idi.

Seçkilərdən bir neçə gün əvvəl, böyük sayda qısa müddətli müşahidəçilər gəldi. Orada həm də 21 təşkilatı təmsil edən 1,209 beynəlxalq müşahidəçi də var idi. Bunların arasında dörd əsas Avropa qurumlarının təmsilçiləri xüsusi diqqət çəkirdi: ATƏT Parlament Assambleyası, DTİHB, AŞPA və Avropa Parlamentinin nümayəndə heyətləri. AŞPA 30, ATƏT 41[128] və Avropa Parlamenti 7[129] müşahidəçi göndərmişdilər. DTİHB isə, artıq ölkədə beş həftə ərzində araşdırma aparan 22 uzunmüddətli müşahidəçilərinə əlavə 300 qısamüddətli müşahidəçilər göndərdi.

Seçki günündən iki gün avvəl, cümə axşamı, dörd nümayəndə heyətinin rəhbərləri Bakının mərkəzində, Scalini adlı İtalyan restoranında ilkin müzakirə üçün görüşdülər. Bu görüşdə AŞPA nümayəndə heyətinin rəhbəri Belçikalı Paul Wille və onun müavini Polşalı Tadeusz Iwinski tərəfindən təmsil edilirdi. ATƏT PA-nın (Parlament Assambleyası) nümayəndə heyətinə rəhbərlik edən Avstriya parlament üzvü və Grieskirchen adlı kiçik şəhərin meri, Wolfgang Grossruck idi. Fin Mərkəzi Partiyasını (KESK) keçmiş rəhbəri və 2003-cü ildə 2 ay Finlandiyanın baş naziri vəzifəsində işləyən, Anneli Jaatteenmaki isə Avropa Parlamentinin nümayəndə heyətinə rəhbərlik edirdi. Nahar yeməyində, Audrey Glover seçkiqabağə vəziyyətin öncəki seçkidən daha pis göründüyünü və seçkilər hələ başlanmazdan əvvəl onların nəticələrinin bilindiyini qeyd etdi. Daha sonra həmin axşam, məlumat sızmasının qabağını almaq üçün , DTİHB komandası hər üç nümayəndə heyətinə hazırladığı 11 səhifəlik seçkiqabağı analizini, işarələnmiş çap şəklində göndərdi. Bu sənəd uzunmüddətli müşahidəçilərin son aylarda öyrəndiklərni müfəssəl izah edirdi.

Bundan sonra üç raund rəsmi görüşlər davam etdi: Şənbə və Bazar günortadan sonra və bazar ertəsi səhər. Şənbə günü DTİHB öz araşırma nəticələrini digərləri ilə paylaşdı. Faktlar üzərində heç bir mühasibə yaranmadı. Amma Paul Wille, Tadeusz Iwinski və Wolfgang Grossruck əvvəldən diqqətlərini seçki günündən sonra hansı nəticələri təqdim edəcəklərinə yetirdilər. Onlar bildirdilər ki, faktların hamısını yekun hesabata qoymaq mümkün olsa da, media üçün daha qısa məlumat lazım idi. Onlar ən çox, "tərəqqinin" olmasını tanımağa üstünlük vermək istəyirdilər.

AŞPA-nın fikirlərində nəyi nəzərdə tutduğu Bazar günü, Paul Wille birgə bəyannamənin özü hazırladığı ilkin variantını təqdim edəndə aydın oldu. DTİHB-nin nəticələrinin baxımından bu çox inanılmaz sənəd idi:

> "MSK seçki prosesini ümumiyyətlə *yaxşı idarə etdi və beynəlxalq standartlara və prosedurlara uyğun şəkildə*. Hakimiyyət, yerli iştirakçılar və beynəlxalq qurumlar arasında *yaxşı əməkdaşlıq, müsbət mühit* yaratdı. Seçki administrasiyası *səmərəli və şəffaf* fəaliyyət göstərdi. Seçki komissiyalarının kifayət qədər işçiləri olsa da, tərkibi *güman* ki, hələ də suallar doğurur. Seçici siyahıları mütəmadı olaraq yeniləndi. MSK tərəfindən çox *təsirli* seçici maarifləndirmə kampaniyası başlandı. Texniki baxımdan, səsvermə *peşəkarcasına* keçirildi.
>
> Keçmişlə müqayisədə müsbət dəyişiklərdən biri də seçkilərin ikinci turunun dinc və zorakı hadisələrsiz keçməsi oldu. Keçmişdəki boykotdan fərqli olaraq, bu dəfə, müxalifət partiyalarının hamısı, bəziləri seçki bloklarının tərkibində olaraq, seçki prosesində iştirak

[128] ATƏT PA Seçki Müşahidə Broşürü, Yanvar 2007 – Dekabr 2011, səh. 41.

[129] Avropa Parlamenti, "Seçki Müşahidə Nümayəndə Heyəti Azərbaycandaki Parlament Seçkilərində (7 Noyabr 2010)", Anneli Jaateenmakinin Hesabatı, səh. 2.

> etmək qərarına gəldilər. Bu ümid yaradır ki, Azərbaycan cəmiyyətinin içində əhəmiyyətli dialoq yarana bilər və bu demokratiya quruculuğu maraqları üçün siyasi spektr üzrə koordinasiyalı addımlar üçün imkanlar yarada bilər.”

DTİHB komandası belə mətni gözləmirdi. Nümayəndə heyətlərinin qiymətləndirmələri arasındaki fərq genişlənib keçilməz bir uçuruma dönmüşdü.

Bazar günü seçkilər başlayan kimi bir daha pis xəbər gəldi. Seçki müşahidəçiləri müşahidə etdikləri 1100 seçki dairəsinin 11 faizində ciddi problemlər qeyd etdilər. Bülletenlərin seçki qutularına doldurulması 63 dairədə qeyd olundu. 100 seçki dairəsində seçici siyahılarında təkrarlanmış imzalar qeyd olundu.

Axşam isə beynəlxalq müşahidəçilər 152 seçki dairəsində səsverməni müşahidə etdilər. Sonradan bilindi ki, “bülletenlərin seçki qutularına doldurulması kimi ciddi problemlər daxil olmaqla, bir neçə yerdə böyük narahatlıq yaradan problemlər olub və müşahidə edilmiş 150 seçki dairəsinin az qala üçdə biri “pis” və ya “çox pis” qiymətləndirilmişdir”.[130] 14 seçki dairəsində səyyar və hərəkətsiz seçki qutularında bülletenlərin sayı seçici siyahılarındaki imzaların sayından çox idi. 31 seçki qutusunda bülletenlər bir yerdə bükülü şəkildə və ya üst-üstə yüklənmiş qalaqlarda aşkar edildi. Bir yüksək vəzifəli DTİHB rəsmisi ömründə bu gədər seçki qutularının doldurulması barədə hesabatlar görmədiyini qeyd etdi.

Bu dərəcədə kütləvi manipulyasıyanın əvvəldən diqqətlə hazırlanması ağlasığmaz görünürdü. Seçkilərin başlanmasından bir gün əvvəl, 6 Noyabrda, seçki dairələrindən birində DTİHB işçilərinə imzalanmamış və möhürlənməmiş nəticələr protokolu təqdim olunmuşdu. Hər bir namizədin aldığı səsin qeyd olunması ilə birgə, rəqəmlərin hamısı artıq daxil edilmişdi. Seçkidən sonra aydın oldu ki, qalib gələn hakim partiyanın üzvünün aldığı səslərin sayı, əvvəlki gün qeyd olunmuş rəqəmlə eynidir.[131]

Günün sonunda bəlli oldu ki, bu seçki güman ki Avropa Şurasının üzv dövlətlərində indiyədək müşahidə olunmuş ən saxtaladırılmış seçkilər olacaq(4-cü cədvələ baxın). Buna baxmayaraq, AŞPA nümayəndə heyətinin rəhbəri Paul Wille Lider TV-nin Bazar günü, axşam saat 7-dəki xəbər verlişində çıxış edəndə, qeyd etdi ki, “bu seçkilər, keçmişdə keçirilən seçkilərdən daha stabil keçirildi. Bu onu göstərir ki, cəmiyyətdə demokratik prosesler gedir. Seçkilər zamanı, ciddi qanun pozuntuları barədə mənə heç bir məlumat verilməmişdir.”

Bazar ertəsi səhəri, nümayəndə heyətləri rəhbərlərinin sonuncu görüşü keçirildi. Artıq seçkilərin nəticəsi bəlli idi. 1991-ci ildən indiyədək, ilk dəfə idi ki, Musavat və Azərbaycan Xalq Cəbhəsi müxalifət partiyaları bir yer də qazana bilməmişdilər. Hakim YAP 125 yerdən 69-unu qazanmışdı və daha 46 yeri hakimiyyətyönlü ‘mestəqil’ namizədlər qazandı.

Paul Wille, Tadeuş İvinski və Wolfgang Grossruck özlərini “irəliləyiş”in isbatına həsr etmişdilər. Onlar mövqeylərini dəyişməyə istəksiz idilər. İvinski Glovera hücum edərək, onu, Azərbaycanın demokratik irəliləyişinin qarşısını almaq missiyasında bulunmaqda ittiham etdi. O DTİHB-nin mövqeyini “səfeh” adlandırdı Səslər ucaldıqca və adamlar otağı tərk etdikcə, DTİHB öyrəndi ki, AŞPA artıq başqa yerdə ayrıca mətbuat konfransı təyin edib.

---

130 Beynəlxalq Seçki Müşahidə Missiyası, “Azərbaycan Respublikası – Parlament Seçkiləri, 7 Noyabr 2010: İlkin Nəticələr Bəyanatı”, 8 Noyabr 2010, səh. 1.

131 ATƏT/ DTİHB, “Azərbaycan Respublikasının 7 Noyabr 2010 Parlament Seçkiləri. Yekun Hesabat”, 25 Yanvar 2011, səh. 21.

*Cədvəl 4: Avropa Şurası üzv dövlətlərində keçirilmiş ən pis seçkilər (seçim)*

| Parlament seçkiləri | Mənfi qiymətləndirilmiş *səsvermə* (müşahidə edilmiş dairələrin %-zı) | Mənfi qiymətləndirilmiş *səssayma* (müşahidə edilmiş dairələrin %-zı) |
|---|---|---|
| Azərbaycan 2010 parlament seçkiləri[132] | 11 faiz | 32 faiz |
| Ermənistan 2012 parlament seçkiləri[133] | 10 faiz | 18 faiz |
| Albaniya 2009 parlament seçkiləri[134] | 8 faiz | 33 faiz |
| Gürcüstan 2008 parlament seçkiləri[135] | 8 faiz | 22 faiz |
| Rusiya 2011 parlament seçkiləri[136] | 7 faiz | 33 faiz |
| *Avropa Şurasından xaricdə:* | | |
| Qazaxıstan 2012 parlament seçkiləri[137] | 9 faiz | 46 faiz |

Əgər Paul Wille dediklərini şişirdirdisə, o zaman DTİHB aldanmışdı. Birincisi, DTİHB güzəştə gedərək, birgə bəyannamənin ikinci səhifəsində, seçkilərin həm müsbət, həm də mənfi cəhətlərinin siyahılarını iki yanaşı sütunda yerləşdirməyə razılaşmışdı. DTİHB həm də giriş paraqrafında "MSK seçki prosesinin texniki cəhətlərini ümumiyyətlə yaxşı idarə etdi" cümləsini yazmağa razılaşdı. Nəhayət, bu seçkilərin beynəlxalq standartlara uyğun olub-olmadığı sualına kompromis cavab əldə edildi:

> "Azərbaycan Repsublikasında 7 Noyabr 2010 parlament seçkiləri dinc şəraitdə və bütün müxalifət partiyalarının siyasi prosesdə iştirakilə qeyd olunsa da, *bu seçkilərin keçirilməsi ölkənin demokratik inkişafında əhəmiyyətli irəliləyişin əldə edilməsi üçün kifayət deyil*."[138]

Nəzərə alsaq ki, bundan əvvəl 2005-ci ildə keçirilmiş parlament seçkiləri standardlara cavab verməyib, Avropa standardlarından baxanda "mənalı tərəqqinin" yoxluğu ifadəsinin nə demək olduğu başa düşülmür.[139] Bununla belə görünür DTİHB-in bir üzvünün dediyi ki, "azdırıcı bəyanat"dansa, "mənasız bəyanat" daha yaxşıdır.

Günortanın erkən saatlarında dörd nümayəndə heyətinin başçıları mətbuat konfransı üçün toplaşdlar. Wolfgang Grossruck sözə hakimiyyəti əməkdaşlığa görə nəzakətlə təriflməklə başladı. O Azərbaycanı "gözəl" bir ölkə kimi təqdim etdi. Sonra isə üzr istəyirmiş kimi əlavə etdi ki, qüsurları görməmək təəccüblü olardı. O izah etdi ki, nu seçkilərin keçirilməsi tərzinin tənqid olunması, hakimiyyətin ölkədə uğurlu alınmış bir sıra sahələrdə etdiyi çoxlu səylər görünməmişdir. Bundan sonra isə o, hesabatdan bu seçkilərdə "mənalı tərəqqinin əldə edilmədiyinə" dair abzası oxudu.

---

132 ATƏT/ DTİHB, "Azərbaycan Respublikasının 7 Noyabr 2010 Parlament Seçkiləri. Yekun Hesabat", 25 Yanvar 2011, səh. 21.

133 ATƏT/ DTİHB, "Ermənistan Respublikasının Parlament Seçkiləri. İlkin Nəticələr Bəyənatı".

134 ATƏT/ DTİHB, "Albaniya Respublikasının 2012 Parlament Seçkiləri. Seçki Müşahidə Missiyasının Yekun Hesabatı".

135 ATƏT/ DTİHB, "Gürcüstan 2008 Parlament Seçkiləri. Seçki Müşahidə Missiyasının Yekun Hesabatı".

136 ATƏT/ DTİHB, "Rusiya Federasiyası 4 Dekabr 2011 Dövlət Dümasına Seçkilər. Seçki Müşahidə Missiyasının Yekun Hesabatı".

137 ATƏT/ DTİHB, "Qazaxstan Respublikasının 15 Yanvar 2012 Erkən Parlament Seçkiləri. Seçki Müşahidə Missiyasının Yekun Hesabatı".

138 Beynəlxalq Seçki Müşahidə Missiyası, "Azərbaycan Respublikası – Parlament Seçkiləri, 7 Noyabr 2010: İlkin Nəticələr Bəyənatı", 8 Noyabr 2010, səh. 1.

139 *Eurasianet*, "Noyabr 2010-da Azərbaycan Seçkiləri: Avropa Seçki Müşahidə Missiyasının Mətbuat Konfransı", Mətbuat konfransının surəti, 8 Noyabr 2010.

Lakin bəs seçkilər beynəlxalq standartlara cavab vermişdirmi? Seçki azad və ədalətli bir şəkildə keçirilmişdirmi? Jurnalistlər israr edirlər ki, onların bu barədə dörd cavabı var.

Paul Wille jurnalistlərə bildirmişdir ki, seçkilər "əsas etibarilə bizim öz…standartlarımıza və öhdəliklərimizə cavab vermişdir". O "müsbət ab-havanı", səmərəli seçki administrasiyasının şəffaflığını, "əhəmiyyətli seçici maarifləndirilməsi kampaniyasını" , zorakılığın olmamasını və seçkinin texniki baxımdan yaxşı təşkil edilməsini tərifləmişdir.[140]

AP (Avropa Parlamenti) nümayəndə heyətinin başçısı Anneli Jaatteenmaki, sürüşkən mövqe tutmuşdur. Jurnalistlər onu divara dirəyərkən o demişdir ki, "mən seçkilərin beynəlxalq standartlara cavab verdiyini heç vaxt deməmişəm, mən seçkilərin yaxşı təşkil olunduğunu və dinc astmosferdə keçdiyini qeyd etmişəm".

Wolfgang Grossruck hətta daha ikibaşlı danışmışdır:

> "Mən sizə bir cavab verə bilmirəm, çünki bu məsələ biur cavab üçün xeyli mürəkkəbdir. Siz gördünüz ki, biz ötən həftə burada çox ağır və vaxt alan bir işlə məşğul olduq və siz inana bilərsiniz ki, bizim ATƏT ölkələrində keçirilən seçkiləri müşahidə etmək üçün çox təcrübəmiz vvardır".

Sonra növbə Audrey Gloverə çatdı və o, çox aydın cavab verdi:

> "Təəssüf ki, bizim müşahidəmiz mənalı demokratik seçki üçün zəruri şəraitin yaradılmadığını göstərdi. Biz xüsusilə təməl insan haqlarının məhdudlaşdırılmasından, medianın qərəzliyindən, ictimai həyatın bir partiya tərəfindən zəbt edilməsindən və seçki günü baş vermiş ciddi pozuntulardan narahatıq".[141]

Glover çıxışını başa vuranda bəzi müxalifət jurnalistləri onu alqışladılar. Sonra bir nəfər Azərbaycan hakimiyyətinin hər hansı beynəlxalq seçki müşahidəçisinə rüşvət verib-vermədiyini soruşdu. Glover cavab Verdi ki, hər halda onun özünə qəti şəkildə rüşvət verilməyib.

Bloger və bir müddət siyasi məhbus olmuş Emin Millinin bu seçkilər barədə fərqli mülahizələri var. O hərbi birliklərdə və həbsxanalarda təşkil olunmuş 139 müvəqqəti seçki məntəqələrindən bində səs verib. Bu məntəqələrdə (onlardan 46-da) seçki davamiyyəti heyrətamiz şəkilkdə 100 faiz, və yas yerdə qalan (59) məntəqələrdə 90 faiz olub. DTİHB bu məntəqələrdə səsverməni müşahidə etməyib. Bunun öz səbəbi var. Sovet zəmanəsindən qalmış və Bakının 120 kilometrliyində yerləşən 5 nömrəli islah-əmək koloniyasında 1000 məhbusa içində əvvəlcədən doldurulmuş seçki büllütüləri olan zərflər verilib. Sonra onlara əmr edilib ki, sıraya düzülüb və bülletenləri seçki qutularına atsınlar. Zərfi açmaq istəyən məhbuslardan biri döyülüb. Milli deyir ki, bu, 2008-dən bir addım da gerilmədir: o zaman məhbuslar bülletenləri özləri doldurmuşdular, hərçənd onlara kimə səs verməkk lazım olduğu tapşırılmışdı.

Hələ bu hamısı deyil. Bakıdan qayıtdıqdan sonra Wolfgang Grossruck ATƏT-in sədr əvəzi, Qazaxıstanın xarici işlər nazirinə məktub yazmışdır. O, Audrey Gloverdən çikayət edirdi. O DTİHB-i etibarsızlıqda və qeyri-peşəkarlıqda günahlandırıdı:

---

140 *AzeriReport*, "Noyabr 2010-da Azərbaycan Seçkiləri: Avropa Seçki Müşahidə Missiyasının Mətbuat Konfransı", Mətbuat konfransının surəti, 8 Noyabr 2010.

141 *AzeriReport*, "Noyabr 2010-da Azərbaycan Seçkiləri: Avropa Seçki Müşahidə Missiyasının Mətbuat Konfransı", Mətbuat konfransının surəti, 8 Noyabr 2010.

> "Biz müşahidə etdik ki, bir sıra hallarda DTİHB faktlara lazımi dərəcədə diqqət yetirmir və qarşı tərəfə qulaq asılmır və nöqsanlarda ittiham olunan hakimiyyətin mövqeyi diqqətlə analiz olunmur".[142]

Grossruck xəbərdarlıq edir ki, DTHİB "seçki müşahidəçiliyinin etibarını tamamilə məhv edə bilər".[143] O belə şikayət edir:

> "iki dəfə jurnalsitlər öz suallarında müşahidəçilərin rüşvət aldıqları barədə iddia səsləndirdilər. Bu, ikinci dəfə baş verəndə, səfir Audrey Glover "ümumi səylərimizi" müdafiə etməkdənsə, cavab Verdi ki, onun özüe şəxsən rüşvət almamışdır. Onun bu sözləri, belə də başa düşüləç bilərdi ki, o, şəxsən rüşvət almayıb, lakin başqa müşahidəçilərin də belə etmədiyini istisna etmir".

2011-ci ilin yanvarında AŞPA monitorinq missiyası rəhbərinin müavini Tadeusz Iwinski Strasburqda assambleyadakı həmkarlarına hesabat vermişdir. O da özü ilə DTHİB arasında mövcud olan "ciddi ixtilaflardan və aşılmaz münasibətlərdən" şikayət etmişdir. Onun hesabatı (parlamentdəki) müxalifəti günahlandırmaqla yekunlaşır:

> "Xüsusi komitə inanır ki, Azərbaycanda canlı ictimai debatın olmamasında müxalifətin də məsuliyyət payı vardır, müxalifət xırda və xudbin siyasətbazlıqla məşğul olmaqdansa, diqqətini real məsələlər yönəltməlidir.
>
> Bu faktlara söykənən xüsusi komitə seçkilərin Assambleyanın və ATƏT-in standartrlarına və şərtlərinə nail olmaqda tərəqqi göstərdiyini qeyd etsə də, Azərbaycanda ümumi seçki və demokratik konsensusun əldə edilməsi üçün hələ də zəruri tərəqqiyə ehtiyac olduğunu bildirdi."[144]

Bu sözlər təəccübləndirici idi: problem seçki saxtakarlığı yox, siyasi *razılığın* olmaması idi. Bakıda olmuş Michael Hancock-da, seçkiləri və Wille və İvinskini gördüyü işləri təriflədi: "Mən Azərbaycandaki seçkilərdə olmağımdan qürur duyuram. Həm Avropada, həm də dünyanın hansısa başqa yerində, hər bir seçki barədə ən yaxşı deyiləsi odur ki, seçki günündən sonra, insanların əksəriyyəti, əksəriyyətinin istədiyi nəticəyə çatdı. Şübəsiz ki, mənim Azərbaycandaki təcrübəm, məni o fikrə gətirir ki, Azərbaycan xalqının əksəriyyətinin arzuları öz əksini nəticələrdə tapdı. Alqışların çoxu, Paul Willenin rəhbərliyi altındaki müşahidə qrupuna verilməlidir."[145]

2010 seçkilərindən sonraki debat, Azərabaycana gəldikdə AŞPA-da bir neçə il ərzində baş verən dəyişikliyin göstəricisi idi. 2005-ci ildə, AŞPA məruzəçiləri, Şuranı seçki pozuntularına göz yummamağa çağırmışdılar. 2010-da, Bakıda olmuş iki məruzəçi susdu. Daha sonra, 26 Noyabrda keçirilmiş Monitorinq Komitəsi görüşündə, Pedro Aqramunt "rəsmi problemləri qeyd etmədiyini" anlatdı. O, DTİHB-i tənqid edib, komitəyə, "seçkilərin Avropa Şurası standartların uyğun keçirildiyini" dedi. Bağlı görüşün qeydləri, "Cənab Debono Grechin razılaşdığını" göstərdi.

Azərbaycanda, 19 vətəndaş cəmiyyəti təşkilatlarından ibartə olan bir qrup, AŞPA və ATƏT-in parlament assambleyasına ərizə göndərdilər. Bu ərizə, Grossruck və Willenin

---

142 *AzeriReport*, "Azərbaycan Seçkiləri Üzrə Münaqişə: Avstriyalı Siyasətçi Britaniyalı Nümayəndə Barədə Şikayət Edir", 20 Dekabr 2010.

143 *AzeriReport*, "Azərbaycan Seçkiləri Üzrə Münaqişə: Avstriyalı Siyasətçi Britaniyalı Nümayəndə Barədə Şikayət Edir", 20 Dekabr 2010.

144 AŞPA, "Azərbaycan parlament seçkilərinin müşahidəsi (7 Noyabr 2010)", Hesabat, Doc. 12475, məruzəçi: Tadeuş İvinski, 24 Yanvar 2011, Bölmələr 53 və 54.

145 AŞPA müzakirələri, 24 Yanvar 2011, səhər saat 11.30-da.

bəyanatlarının "dərindən təəssüf hissi və narahatlıq yaratdığını"qeyd etdi.[146] Ərizənin müəllifləri AŞPA və ATƏT PA müşahidəçiləri tərəfindən tətbiq edilən metodologiya barədə izahat almaq israr etdilər.[147] Onlar heç bir cavab gəlmədi.

Bu arada, liberal Belçikalı senator, Paul Wille Qazaxstana, 2011 prezident seçkilərini müşahidə etmək üçün səfər etmişdi. Orda olarkən o, "səsvermə gününün ilk yarısında, öz missiyasını yerinə yetirərkən, müsbət mühitin mövcud olduğunu qeyd etdi."[148] Mediada ona məxsus sitatda, "çox zaman, mənfi rəylər əvvəlcədən hazırlanır" demişdir. O qeyd etdi ki, məlumatı olmayan müşahidəçilər anlamırlar ki, "Yaxşı demokratiya, güclü müxalifət tələb edir...Mən ümid edirəm ki, demokratiyanın şərti kimi, gələcəkdə müxalifət layiqli təkliflər hazırlayacaq."[149]

Yanvar 2011-də, DTİHB, Azərbaycan parlament seçkiləri barədə, öz müfəssal və çox tənqidi təhlilini nəşr etdi. Amma bu zaman, mətbuat konfransı yox idi. O vaxtacan seçkiləri nəticəsi dünənin xəbərinə çevrilmişdi. Lakin Bakıda baş verənlər, orada olanların hamısının yadında qaldı. Bir neçə ay sonra, Audrey Glover, Maastrixtdə, hökümətlərin seçkiləri manipulyasıya etmək üçün işlətdikləri mürəkkəb üsüllar barədə konfransda çıxış etdi: "Qorxu və gələcək namizədləri qeydiyyatdan keçirməmək üçün nominasıyalarını zəif səbəblərlə rədd edərək, seçki kampaniyası başlamamış, müxalifət faktiki olaraq ləğv edilə bilər...Bunun nəticəsi isə, seçici yorğunluğu və ümumi seçki prosesinə inamın olmaması, eləcə də seçici iştirakının azalması, hansı ki, manipulyasiya üçün daha çox imkan yaradır." Glover çıxışını bədbin tonla bitirdi: "Müəyyən dərəcə ümidsizlik yaranır və bir sual qaldırır: bu ölkələri dəfələrlə müşahidə etməyin dəyəri varmı?"[150]

146 "Azərbaycan vətəndaş cəmiyyəti təşkilatlarının ərizəsi", səh. 1. http://www.monitoring.az/upload/Petition%20of%20civil%20society%20organizations%20of%20Azerbaijan.pdf.

147 "Azərbaycan vətəndaş cəmiyyəti təşkilatlarının ərizəsi", səh. 2. http://www.monitoring.az/upload/Petition%20of%20civil%20society%20organizations%20of%20Azerbaijan.pdf.

148 *Trend*, "Belçikalı Senator Qazaxstanda müşahidəçilərin qərəzsiz fəaliyyətinə ümid edir", 3 aprel 2011.

149 *Trend*, "Belçikalı Senator Qazaxstanda müşahidəçilərin qərəzsiz fəaliyyətinə ümid edir", 3 aprel 2011.

150 Audrey Qlover, "ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Ofisinin seçki müşahidəçiliyində üzləşdiyi çətinliklər", Hollandiya Statistikaları, *Beynəlxalq seçki müşahidəçiliyi və seçkilərin qiymətləndirilməsi*, 2011, səh. 99.

## ƏLAVƏ: ESI HESABATLARI

Caviar Diplomacy. How Azerbaijan silenced the Council of Europe (24 May 2012)

Generation Facebook in Baku. Adnan, Emin and the Future of Dissent in Azerbaijan (15 March 2011)

Murder in Anatolia. Christian missionaries and Turkish ultranationalism (12 January 2011)

Isolation Confirmed. How the EU is undermining its interests in Kosovo (22 November 2010)

A very special relationship. Why Turkey's EU accession process will continue (11 November 2010)

The Great Debate - Germany, Turkey and the Turks. Part 1: Intellectuals (21 October 2010)

Georgia's Libertarian Revolution – Part three: Jacobins in Tbilisi (25 April 2010)

Georgia's Libertarian Revolution – Part two: Bendukidze and Russian Capitalism (17 April 2010)

Georgia's Libertarian Revolution – Part one: Georgia as a model (10 April 2010)

Discussion paper: Isolating Kosovo? Kosovo vs Afghanistan 5:22 (19 November 2009)

Analysis: Bosnian Visa Breakthrough. Detailed Scorecard of Bosnia and Herzegovina's results in meeting the EU Schengen White List Conditions (16 October 2009)

Noah's Dove Returns. Armenia, Turkey and the Debate on Genocide (21 April 2009)

Background Paper: The White List Project. EU Policies on Visa-Free Travel for the Western Balkans (1 November 2008)

ESI Briefing: Turkey's dark side. Party closures, conspiracies and the future of democracy (2 April 2008)

A referendum on the unknown Turk? Anatomy of an Austrian debate (30 January 2008)

A Bosnian Fortress (19 December 2007)

Discussion paper: The worst in class. How the international protectorate hurts the European future of Bosnia and Herzegovina (8 November 2007)

Sex and Power in Turkey. Feminism, Islam and the Maturing of Turkish Democracy (2 June 2007)

Discussion paper: Legal Dynamite. How a Bosnian court may bring closer the end of the Bosnian protectorate (12 March 2007)

On Mount Olympus. How the UN violated human rights in Bosnia and Herzegovina, and why nothing has been done to correct it (10 February 2007)

Discussion Paper: The cost of non-Europe. Textile towns and the future of Serbia (18 January 2007)

*Daha çox hesabatlar: www.esiweb.org*